# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 84 (3408) Cümə axşamı / 4-10 noyabr 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Ermənilər tunellər vasitəsilə sərhədlərimizi pozur



**Aqil Məmmədov,**
Milli Məclisin deputatı

***Noyabrın 25-i Kəlbəcərin işğaldan azad olunduğu gündür. Noyabrın 10-da imzalanmış üçtərəfli atəşkəs sazişinə əsasən azad olunan Kəlbəcərdə, artıq müəyyən bərpa işlərinə imza atılıb. Sərhədddə həllini gözləyən çox məsələ qalır və böyük gözləntilər var. Kəlbəcərdən olan deputat Aqil Məmmədov bu barədə hafta.az-a danışıb...***

*Kəlbəcərin işğaldan azad olunduğu gün, 25 noyabrda rayonun baş planı və perkpeksivlər barədə daha geniş məlumat ala biləcəyik*

Səh. 3

# Qarabağda, Zəngəzurda "ağıllı bələdiyyə"

***Bu gün işğaldan azad olunmuş ərazilərdə sürətli yenidənqurma və bərpa işləri aparılır. Hazırda hökumətin qarşısında duran əsas vəzifə qısa müddətdə ərazilərin minalardan təmizlənməsi, paralel olaraq ilkin infrastrukturun qurulması və növbəti mərhələdə yaşayış evlərinin tikintisinə başlamaqla əhalinin öz torpaqlarına qayıdışını təmin etməkdir. Bu ilin sonu və ya gələn ilin əvvəlinə azad olunmuş ərazilərə ilk əhali köçünün baş tutacağı gözlənilir. Əhalinin qayıdışı təkcə fiziki yox, həm də müvafiq idarəetmə institutlarının qurulması, vətəndaşların məşğulluğunun təmin olunması fonunda baş verməlidir. Ona görə də sözügedən ərazilərdə yerli özünüidarə institutunun tezliklə formalaşdırılması, habelə vətəndaşların məşğulluğunun təmin olunması üçün onlara pay torpaqlarının ayrılması zəruri sayılır. Qeyd edək ki, hazırda hökümək hər iki istiqamət üzrə paralel olaraq iş aparır. Sözügedən ərazilər minalardan təmizləndikcə əkinə yararlı torpaqların qeydiyyatı həyata keçirilir. Eyni zamanda, yeni salınan ağıllı kəndlərdə ağıllı bələdiyyələrin yaradılması istiqamətində müvafiq addımlar atılır.***



Mütəxəssislərin ilkin qiymətləndirməsinə görə, işğaldan azad olunmuş inzibati-ərazi vahidlərində təxminən 260-a yaxın yeni bələdiyyənin yaradılması mümkündür. Əslində Azərbaycanın 20 illik bələdiyyə təcrübəsi olduğundan işğaldan azad olunmuş ərazilərdə yerli özünüidarə institutlarını yaratmaq texniki baxımdan çətinlik yaratmayacaq. Şəhər və rayon mərkəzlərində şəhər bələdiyyələri, qəsəbələrdə qəsəbə bələdiyyələri, bir və ya bir neçə kənd yaşayış məntəqələrində isə kənd bələdiyyələri yaradılacaq.

## İlkin qiymətləndirmələrə görə, bu ərazilərdə, təxminən, 260-a yaxın yeni bələdiyyənin yaradılması mümkündür

Büdcə gəlirlərinin formalaşması və büdcə xərclərinin istifadəsi təcrübəsi də eynilə yeni bələdiyyələrə proyeksiya olunacaq. İşğaldan azad edilmiş ərazilərin idarə olunmasına münasibətdə vətəndaşlarda böyük bir gözlənti var. Bu gözlənti ondan ibarətdir ki, hökumət həmin ərazilərdə ən yaxşı nümunələri, ən yaxşı təcrübələri tətbiq edəcək. Analoji gözlənti bələdiyyələrlə bağlı da mövcuddur və hesab edilir ki, yeni bələdiyyələrin səlahiyyəti daha geniş olacaq, onlar öz fəaliyyətlərini daha müasir formada quracaqlar.

Maraqlıdır, görəsən işğaldan azad olunmuş ərazilərdə yerli özünüidarəetmə necə qurulmalıdır? Bu proses mövcud bələdiyyələrin təcrübəsi əsasında reallaşarsa, hansı müsbət və mənfi tendensiyalar ortaya çıxa bilər? İşğaldan azad olunmuş ərazilərdə pay və bələdiyyə torpaqlarının müəyyən olunması nə zaman yekunlaşacaq? Keçmiş məcburi köçkünlərə ayrılacaq pay torpaqlarının sahəsi maksimum nə qədər olacaq?

### 15-20 ailəlik kənd bələdiyyəsi formal olacaq

■ **Məsələni hafta.az-a şərh edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilməli olan mühüm tədbirlərdən biri də bələdiyyələrin formalaşdırılmasıdır:**

"İşğaldan azad edilmiş ərazilər minalardan təmizləndikdən sonra hər bir kəndin, yaşayış məntəqəsinin əraziləri müəyyən olunacaq. Ərazilər müəyyən edilib vətəndaşlar ora köçürüldükdən sonra onların təşəbbüsü ilə bələdiyyələr yaradılmalıdır. Qanunvericilik imkan verir ki, hər bir yaşayış məntəqəsində bələdiyyələr yaradılsın. Erməni işğalı nəticəsində 1 milyona yaxın insanın bələdiyyə orqanı olmayıb. Məhz erməni işğalı nəticəsində həmin ərazilərdən olan soydaşlarımızın konstitusyon hüquqları pozulub. Bu məsələ dəfələrlə beynəlxalq təşkilatlar qarşısında qaldırılmışdı ki, insan hüquqlarından danışan qurumlar nəyə görə erməni təcavüzü nəticəsində hüquqları pozulmuş soydaşlarımıza hüquqlarının bərpasında dəstək nümayiş etdirmirlər, amma onlar susurdular. Faktiki olaraq həmin ərazilər azad olunana qədər isə orada yerli özünüidarəetmə orqanı yaratmaq mümkünsüz idi. Şükürlər olsun ki, artıq işğal altındakı torpaqlarımız azaddır və bu ərazilərdə də bələdiyyələr yaradılmalıdır. İşğaldan azad olunmuş ərazilərimizdə bələdiyyələrin formalaşması, sürətli məskunlaşmanın və torpaq islahatı prosesinin həyata keçirilməsi, yeni ərazi vahidlərinin yaradılması, bu ərazilərdə yerli idarəetmənin səmərəli fəaliyyəti vacib əhəmiyyət kəsb edir. Bələdiyyələrin yaradılması üçünsə ilk növbədə işğalan azad olunmuş ərazilərdə inzibati ərazi dairələrinin, yaşayış məntəqələrinin müəyyən olunması və qeydiyyatı və s. işlər görülməlidir. Hazırda bu istiqamətdə müvafiq işlər görülür, bütün rayonların əraziləri məlumdur, köhnə xəritələr var və həmin xəritələr əsasında da ərazilər müəyyən olunacaq. Mövcud qanunvericiliklərə görə, hər bir yaşayış məntəqəsində vətəndaşların təşəbbüsü ilə bələdiyyələr yaradıla bilər.

Burada bir məsələ var, işğaldan əvvəl bəzi kəndlər var idi ki, orada 15-20 ailə yaşayırdı. Məsələn, Laçında xeyli dağ kəndləri vardı ki, oraya gedib-gəlmək çox çətin olurdu, belə ərazilərdə bələdiyyələr yaradıla bilməz. Belə bir fikir var ki, həmin kəndlərin əhalisi rayona, mərkəzə yaxın ərazilərə yerləşdirilsin. Tutaq ki, 4-5 yaxın kəndlər hamısı birləşdirilsin və onun da bələdiyyəsi bir olsun. 15-20 ailə olan kənddə yaradılacaq bələdiyyə formal olacaq. Bələdiyyənin özünün əmlakı, torpağı, gəlir yeri olmalıdır.

**Yeri gəlmişkən...**

***Azərbaycanda bələdiyyələr 1999-cu ildən fəaliyyət göstərir. Ermənilərin işğalı nəticəsində indiyə qədər 950-dən çox yaşayış məntəqəsində bələdiyyə seçkiləri keçirilməyib və həmin ərazilərdən olan soydaşlarımızın konstitusyon hüquqları pozulub. Azərbaycanda fəaliyyət göstərən 1606 bələdiyyə arasında ötən ilə qədər işğal altında olmuş Ağdam və Füzuli rayonlarını əhatə edən bələdiyyələrə də rast gəlmək olar. Belə ki, bu rayonların bəzi əraziləri işğal olunmadığından həmin yaşayış məntəqələrində yerli özünüidarə qurumları mövcuddur. Hazırda Ağdam rayonunda 11 qəsəbəni və 79 kəndi əhatə edən 14 bələdiyyə, Füzuli rayonunda 1 şəhəri, 16 qəsəbəni və 18 kəndi əhatə edən 21 bələdiyyə fəaliyyət göstərir.***

Səh. 5

MÜSAHİB



**Üzeyir Cəfərov,**
hərbi ekspert

■ Yaxın zamanlarda ərazilərimizlə bağlı xoş xəbərlər eşidəcəyik...

■ Ermənistan və ona havadarlıq edən qüvvələr oyun qaydalarını pozmasalar, həmin sənədin şahidi olacağıq...

■ Türkiyə bəlli məqamda hadisələri yaxından izləyir və proseslərin içindədir...

Səh. 5

GÜNÜN FOTOSU...




**Erməni hərbçilərinin qohumları etiraz aksiyası keçirir...**

GÜNÜN SİTATI

*"Bizə neftin həddən artıq yüksək qiymətləri lazım deyil. Bəlkə də bu gün qiymətlər bir qədər yüksəkdir, amma gördüyünüz kimi, OPEC+ hər ay hasilatı artırır"*



**Pərviz Şahbazov,**
energetika naziri

KARİKATURA



**DİN xəbərdarlıq etdi: inanmayın!..**

## Qarabağ ermənilərinin milli kimlikləri əllərindən alınıb

**Əvəz Temirxan,**
Azərbaycan Liberal Partiyasının sədri

Ermənistanı Hayastan edib məhv etməliyik. Bizerməni dediyimiz albanlarla hayları qarşı-qarşıya qoymalıyıq.

Səh. 3

STATİSTİKA



■ **Bu ilin yanvar-avqust aylarında Bakı şəhəri üzrə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqının məbləği açıqlanıb.**

Paytaxtda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin müvafiq dövrünə nisbətən 0,5% azalaraq 943,3 manat təşkil edib.

Xatırladaq ki, bu ilin yanvar-avqust aylarında paytaxtda orta aylıq əməkhaqqı üzrə göstərici 948 manata bərabər olub.



Səh. 5

## Özəl tibb müəssisələrində vahid qiymət siyasəti

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri Mərkəzin fəaliyyətinə göstərdiyi diqqətə və dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. 44 günlük Vətən müharibəsi zamanı Mərkəzin İdarə Heyətinin üzvlərinin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən çoxsaylı bəyanatlarla çıxış etdikləri qeyd olundu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq təsisat kimi dünyada rolunun və nüfuzunun artması xüsusi vurğulandı. Söhbət zamanı noyabrın 4-dən 6-dək "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun çox aktual mövzuya həsr olunduğu qeyd edildi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri pandemiyaya baxmayaraq, Mərkəzin aktiv fəaliyyət göstərməkdə davam etdiyini, çoxsaylı konfranslar keçirdiyini və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirdiyini bildirdilər. Forum çərçivəsində Mərkəzin İdarə Heyətinin üzvlərinin və digər iştirakçıların Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edəcəkləri vurğulandı.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.**

Görüşdə "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun bir çox mühüm məsələlərin müzakirəsi üçün qlobal platforma olduğu bildirildi, pandemiyaya baxmayaraq, tədbirdə iştirak etmək üçün Bakıya çox sayda qonağın gəlməsinin bu Foruma və ölkəmizə olan marağın göstəricisi olduğu vurğulandı. Görüşdə Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin ölkəmizin müvafiq qurumları ilə səmərəli əməkdaşlığından məmnunluq ifadə olundu.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.**

Söhbət zamanı "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığa töhfə verəcəyi vurğulandı. Görüşdə Prezident İlham Əliyevin Xorvatiyaya səfəri və həmin səfər zamanı Kolinda Qrabar-Kitaroviçlə görüşü məmnunluqla xatırlandı, bu səfərin əlaqələrimizin genişləndirilməsində rolu qeyd edildi.

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AIIBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Zəfər Günündə Amnistiya

## Gündəm

***8 Noyabr - Zəfər Günü ilə bağlı amnistiya gözlənilir. Milli Məclis "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar layihəsini müzakirə edib. Prezident tərəfindən Milli Məclisə təqdim olunan amnistiya sənədi preambula və 4 hissədən ibarətdir. Orada amnistiya tətbiq edilən şəxslərin dairəsi, amnistiyanın tətbiqinə məhdudiyyətlər, Amnistiya aktının hüquqi qüvvəsi və amnistiyanın tətbiqi qaydaları öz əksini tapıb.***



Bu amnistiyanı şərtləndirən vacib məqam onun Zəfər Gününə - 8 Noyabr tarixinə həsr olunmasıdır və müzakirəyə çıxarılan sənəd indiki dövrün ən böyük Amnistiya aktı hesab olunur.

8 Noyabr - Zəfər Günü münasibətilə elan ediləcək budəfəki amnistiya Azərbaycan cəmiyyətində insan hüquq və haqlarına hansı töhfəni verməyi olacaq? Bu istiqamətdə hafta.az-a danışan hüquq müdafiəçiləri, siyasətçi və deputatlar amnistiyanın əhəmiyyətinə toxunublar.

■ **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə hafta.az-a açıqlamasında bildirib ki, Prezidentin imzası ilə Milli Məclisə daxil olmuş "8 Noyabr - Zəfər Günü ilə bağlı amnistiyanın elan edilməsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.**

Onun sözlərinə görə, hazırkı qanun layihəsi əvvəlkilərdən daha geniş dairəni əhatə edəcək. Ç.Qənizadə bildirib ki, bundan öncə verilən Amnistiya aktı 2016-cı ildə I vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclisə təqdim edilmişdi və 10 min nəfəri əhatə etmişdi.

"Hazırkı amnistiya layihəsinin təsir dairəsi daha genişdir. Amnistiya sənədində vacib olan şərtlərə baxdıqda görürük ki, daha çox insanlara şamil ediləcək. Burada Qarabağ döyüşləri zamanı şəhid olanların ailə üzvləri, yaralılar, eyni zamanda, Xocalı faciəsi zamanı zərər çəkən insanlar, torpaqlarımızın işğalı nəticəsində zərər çəkən insanların ailə üzvləri, II Dünya müharibəsində iştirak edənlərin ailə üzvləri, eyni zamanda Çernobl qəzasında iştirak edənlərin özləri və yaxınları və müəyyən yaş qrupu, yaş həddi tətbiq edilməsi ilə bağlı bəndlər bunu göstərir. İndi amnistiyaya düşənlərin sayı ilə bağlı müxtəlif fikirlər var. Bir çox hallarda bunun 15 min olacağı deyilir və bu da mümkündür. Qanun layihəsi hazırlanmamışdan öncə Prezident Administrasiyasının müvafiq qurumlarında geniş araşdırma aparılıb. Təbii ki, bu maddələrin təsir dairəsinə düşən məhkumların sayı, azadlıqdan məhrum etmədən cəza çəkən şəxslərin sayı və dairəsi müəyyənləşdirilib. Ona görə də ola bilər ki, 15 min məhkum bu Amnistiya aktının humanizm dəyərlərindən bəhrələnsin".

Ç.Qənizadə məsələyə "Bir məhkumun sevinci, təkcə onun sevinci deyil" prizmasından yanaşaraq, bu amnistiyanın hər bir məhkumun ailə üzvlərinə, dostlarına, qohumlarına sevinc bəxş edəcəyinə diqqət çəkib. Onun fikrincə, bunu nəzərə alsaq, 100 minlərlə insanın sevincinə səbəb olacaq bir Amnistiya aktı imzalanacaq.

"Cənab Prezident həmişə xalqımızı özünün humanist qərarları ilə sevindirir. Ötən aylarda da 600 nəfər məhkum olmuş insanımız əfv fərmanının təsiri altına düşmüşdü. İndi də Amnistiya aktının verilməsi ilə çox sayda insanın sevincinə sevinc bəxş ediləcək. 100 minlərlə insan həm qələbəmiz münasibətilə, həm də amnistiyada azadlığın təmin edilməsi ilə bərabər sevinəcək.

Hüquq müdafiəçiləri cənab Prezidentin bu qərarlarını həmişə müsbət dəyərləndirib, alqışlayıb. Bir daha alqışlayırıq! Təşəkkür edirik ki, belə bir həssas vaxtda, həm qarşıdan gələn bayram sevinci, ümumiyyətlə, ölkədə il ərzində baş verən proseslər, torpaqlarımızın işğaldan azad olunması, şəhidlərimizin olması və insanların pandemiya dövründə psixoloji gərginlik yaşaması fonunda belə bir gözəl addım atıldı. Bu addımın atılması insanlara sakitlik, sabitlik və sevinc gətirəcək".

■ **Hüquq müdafiəçisi və Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu hafta.az-a bildirib ki, amnistiyanın qadınlara, müharibədə iştirak edən insanlara, 60 yaşdan yuxarı olanlara, uşağı xəstə olanlara şamil edilməsi, təbii ki, mütərəqqi addımdır.**

"Biz bu Amnistiya aktı ilə bağlı addımı dəstəkləyirik. Çox sağ olsunlar, minlərlə insan öz ailələrinə qayıdacaq". N.Cəfəroğlu hesab edir ki, proses siyasi motivlə həbs olunanlara, hüquq müdafiəçilərinə də şamil oluna bilər. "Bu Zəfər günü ərəfəsində verilən amnistiya millətin bir-birni dəstəkləməsi, barış, humanist addımıdır".

■ **Beynəlxal İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan milli bölməsinin rəhbəri Səadət Bənənyarlı hafta.az-a bildirib ki, amnistiya ilə bağlı qərar hələ qüvvəyə minməsə də, gözləntilər böyükdür. Onun sözlərinə görə, bu amnistiyada böyük bir məhkum təbəqəsi əhatə olunacaq.**

"Düşünürəm, amnistiya 10 mindən artıq məhkumun işində öz əksini tapacaq. Burada xüsusi məqam amnistiyanın I-II Qarabağ müharibəsi iştirakçılarına və onların ailə üzvlərinə şamil olunmasıdır. Bunu müsbət hal kimi qeyd edirəm". S.Bənənyarlının Amnistiya aktından başqa digər gözləntiləri əfvin imzalanması ilə bağlıdır.

"Biz ilin sonuna kimi əfv fərmanının da imzalanmasını istərdik. Bir çox müddəalarla amnistiyaya düşməyən insanlar var ki, Prezident öz səlahiyyətindən istifadə edərək onları əfv edə bilər. Amnistiyada istərdim ki, siyasi motivlərlə həbs olunan insanlar əfv olunsun. Cəmiyyətdə siyasi məhbus sözü qalmasın".

■ **Aydınlar Partiyasının sədri, hüquqşünas Qulamhüseyn Əlibəyli hafta.az-a açıqlamasında bildirib ki, Amnistiya dövlətin öz vətəndaşına, cinayət törətmiş insanlara qarşı münasibətdə humanist bir aktdır. Onun sözlərinə görə, bütün ölkələrdə əfvi olunub ki, ayrı-ayrı tədbirlər, bayramlarla bağlı dövlət məhkumları bir növ bağışlayır, əfv edir.**

"Bu cür Amnistiya aktının verilməsini təqdirəlayiq hesab edirəm. Təxminən, 15 mindən çox adama şamil olunacaq. Məhkumların hamısı dərhal 8 noyabrda azadlığa çıxmayacaq.

Bu prosesin icrası 4 ay müddətində nəzərdə tutulur. Hər bir fərdin işini araşdırıb onun Amnistiya aktının təsirinə düşüb-düşməməsini müəyyənləşdirmək lazımdır. Bütün hallarda bu cür addımlar çox yaxşıdır. Gələcəkdə də Amnistiya aktını davam etdirmək lazımdır. Vaxtaşırı dövlət öz vətəndaşlarına humanistlik aktlarını nümayiş etdirməlidir. Amnistiyaya düşən insanların sosial adaptasiyası məsələlərinə baxılmalıdır. Amnistiya bütövlükdə cəmiyyətimizdə insan hüquqlarına hörmətlə bağlı olan bir məsələdir".

■ **Milli Məclisin deputatı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərəmov hafta.az-a "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsinin priambulasında məqsədlərin göstərildiyini deyib.** Onun sözlərinə görə, orada amnistiyaya düşən şəxslərin dairəsi və amnistiyanın tətbiqinə qoyulan məhdudiyyətlər, eləcə də hüquqi qüvvəsi və hüquqi qaydaları əks olunub. B.Məhərəmov hesab edir ki, məqsəd aydındır. Hüququn, ədalətin təmin olunması prosesi nəzərə alınaraq dövlət ümid edir ki, amnistiyanın təsirinə düşən vətəndaşlar dövlətimizin inkişafına və rifahına öz töhfələrini verəcəklər.

Deputat bildirir ki, Amnistiya aktına Vətən Müharibəsində, müharibədən kənar suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər, onlardan kim həlak olubsa və yaxud itkin düşübsə onların yaxın qohumları, xüsusi xidmətlərinə görə orden və medallarla təltif olunmuş şəxslərimiz, erməni təxribatları nəticəsində həlak olan insanların yaxın qohumları, həlak olmayıblarsa, onların əlilliyi müəyyən olunubsa özləri, deportasiyaya məruz qalmış qərbi azərbaycanlılar, məcburi köçkünlük dövründə köçkün düşənlər, 20 Yanvar, Xocalı faciəsində həlak olanların, itkin düşənlərin yaxınları, eyni zamanda sağ olanların özləri, sovet dövründə beynəlmiləl əməliyyatlarda iştirak edən şəxslər, əgər itkin düşüb, həlak olublarsa onların yaxın qohumları, həmçinin II dünya müharibəsində həlak olan, itkin düşmüş şəxslərin qohumları, yaxınları, vətəndaşlarımız, SSRi orden və medalları ilə təltif olunmuş şəxslər, represiyaya məruz qalmış insanlar, Çernobl qəzası iştirakçıları, yaxud onların yaxınları, əlillər və sair şəxslər daxildir.

Deputat bildirib ki, burada maraqlı məqam qərarın bütövlükdə qadınlara, 18 yaşına çatmamış bütün şəxslərə, 60 yaşına çatmış şəxslər, I-II qrup əlillərə şamil olunmasıdır. O, eyni zamanda Amnistiya aktının kimlərə şamil olunmayacağını qeyd edib. Bildirib ki, amnistiya 1994-cü ilin 24 fevral qanununa əsasən Xocalı soyqırımı ilə bağlı cinayətlərdə, 20 Yanvarda sovet qoşunlarının Bakıya daxil olaraq törətdiyi qırğınlarda, torpaqlarımızın işğal edilməsində və sair bu tip təqsirləri olan, yaxud ağır və ya xüsusilə ağır cinayətlər törətmiş şəxslərə tətbiq edilməyəcək. B.Məhərrəmov bildirib ki, bütövlükdə indiki akt həm cəzadan azad etməni, həm də cəzanın azaldılmasını əhatə edir.

"Bu, Vətən Müharibəsinin fonunda cənab İlham Əliyevin cinayətkar qəsddə bulunmuş, ictimai təhlükə törətmiş şəxslərə vermiş olduğu ikinci şansdır. Bununla həm milli həmrəyliyimizi ortaya qoyuruq, həm vətəndaşlara ikinci şans verilir ki, dövlətin rifahı, cəmiyyətimizin inkişafı naminə öz səylərini ortaya qoysunlar.Bu amnistiya ən azı ötən dövrlərdə tətbiq olunan amnistiya aktlardan böyük olacaq. Ədliyyə Nazirliyinin konkret rəqəmlərini, qərarlarını gözləmək lazımdır. Mən də amnistiyaya düşənlərin 15 mindən az olmayacağını gözləyirəm".

✍ *Tahirə Qafarlı*

*"Hazırkı amnistiya layihəsinin təsir dairəsi daha genişdir...*

*Zəfər Günü ərəfəsində verilən amnistiya qərarı millətin birliyi, barış, humanizm addımıdır...*

*Biz ilin sonuna kimi əfv fərmanının da imzalanmasını istərdik...*

*Vaxtaşırı dövlət öz vətəndaşlarına humanistlik aktlarını nümayiş etdirməlidir...*

*Burada maraqlı məqam qərarın bütövlükdə qadınlara, 18 yaşına çatmamış bütün şəxslərə, 60 yaşına çatmış şəxslərə, I-II qrup əlillərə şamil olunmasıdır...*



**Çingiz Qənizadə,**
Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri



**Novella Cəfəroğlu,**
hüquq müdafiəçisi



**Səadət Bənənyarlı,**
Beynəlxal İnsan Hüquqları Cəmiyyətinin Azərbayacan milli bölməsinin rəhbəri



**Qulamhüseyn Əlibəyli,**
Aydınlar Partiyasının sədri, hüquqşünas



**Bəhruz Məhərəmov,**
Milli Məclisin deputatı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü

# Ermənilər tunellər vasitəsilə sərhədlərimizi pozur

## Müsahib



**Aqil Məmmədov,**
Milli Məclisin deputatı

***Noyabrın 25-i Kəlbəcərin işğaldan azad olunduğu gündür. Noyabrın 10-da imzalanmış üçtərəfli atəşkəs sazişinə əsasən azad olunan Kəlbəcərdə, artıq müəyyən bərpa işlərinə imza atılıb. Sərhədddə həllini gözləyən çox məsələ qalır və böyük gözləntilər var. Kəlbəcərdən olan deputat Aqil Məmmədov bu barədə hafta.az-a danışıb...***

***- Aqil müəllim, Kəlbəcərin işğaldan azad olunduğu günün 1 ilinə yaxınlaşırıq. Noyabrın 25-də Kəlbəcər bir güllə atılmadan azad olundu. Kəlbəcərin azadlığı və bundansonrakı həyatı ilə bağlı gözləntiniz nədir?***

- Əvvəla, qeyd edim ki, Kəlbəcərin işğaldan azad olunması ilə bağlı ötən bir ildə çox mühüm anlar yaşadıq. 30 il müddətə yaxın gözlədiyimiz o həsrətə son qoyuldu. Məcburi köçkünlük damğası, o utanc hissi ümumən Azərbaycan xalqının üzərindən götürüldü. Təbii ki, bu siyasətin arxasında möhtərəm, cənab prezident durur. Əgər uğurlu daxili və xarici siyasət aparılmasaydı, ölkə iqtisadiyyatı çoxşaxəli inkişaf etdirilməsəydi, hərbimiz güclənməsəydi bu qələbədən danışmağa dəyməzdi. Aparılan uğurlu siyasət nəticəsində müzəffər Ali Baş Komandan öz müzəffər Ordusu ilə bütün torpaqlarımızı işğaldan azad etdi.

Azərbaycan həmişə çalışıb ki, regionda yaranan problemləri sülh yolu ilə həll etsin. Bilirsiniz ki, 2016, 2018, 2020-ci illərin hadisələrində düşmən tərəf daha da azğınlaşaraq daha çox ərazilərimizi işğal etmək iddiasında idi. Həmin ərəfələrdə də Azərbaycan Ordusu düşmənə səhvlərini başa salsa da, qarşı tərəf bundan bir nəticə çıxartmadı. 27 sentyabrda başlayan əks-hücum əməliyyatında 44 gün müddətində torpaqlarımız qısa vaxtda tamamilə erməni tapdağından azad edildi. Artıq zəfər günümüzə çox qısa vaxt qalıb.

Bir il əvvəl Zəfər günü - 8 Noyabr tarixində cənab Ali Baş Komandan elə bir çıxış etdi ki, Azərbaycan xalqı onu heç vaxt unutmaz. Orada Prezident "Mən xoşbəxtəm ki, ata vəsiyyətini çox yüksək səviyyədə yerinə yetirdim, Şuşanı azad etdim, Şuşa, sən azadsan! Şuşa, səni dirçəldəcəyik!"söyləməklə həqiqətən çox böyük mesajlar verdi. Həmin çıxışın təsirindən hələ bu gün də çıxa bilməmişəm. Atəşkəs sazişindən sonra qarşı tərəf diz çökərək kapitulyasiya aktına imza atdı. Ağdamın müəyyən hissəsini, Kəlbəcəri, Laçını bir güllə atmadan, şəhid vermədən düşməndən azad etdik. Bu da bu Zəfərin kulminasiya nöqtələrindən biridir.

...Bilirsiniz ki, Kəlbəcər rayonu ərazi baxımdan böyük, coğrafi mövqeyinə görə dağlıq, mürəkkəb relyefi olan rayondur. Bəzi qurumlar, sapı özümüzdən olan baltalar və yaxud başqalarına xidmət edən insanlar arada Kəlbəcər, Laçının azad olunması məsələsinin uzanmasını başqa səmtə yozurdular. Cənab Prezidentin bu arada bir sözünü xatırlatmaq istəyirəm. O demişdi: "Mən nəyi, nə zaman, necə edəcəyimi yaxşı bilirəm". Bu prosesdə tələsmək olmazdı. Ali Baş Komandan müdrikcəsinə, tələsmədən, düşünülmüş şəkildə addımlar atdı. Bunun nəticələridir ki, bütün torpaqlarımız, eləcə də Kəlbəcərimiz azad olundu. Gözümüz aydın!..

***- Bu gün Azərbaycanın Ermənistanla dövlət sərhədinin yenidən müəyyənləşməsi istiqamətində proseslər müzakirə olunur. Sizcə, Kəlbəcər rayonundan keçən sərhədlər hansı xəritələrlə müəyyən olunmalıdır, gözləntiniz nədir?***

- Ermənistan öz məğlubiyyətini bu gün də qəbul edə bilmir, amma buna məcburdur. Beynəlxalq qanunla Azərbaycan dövlətinin ərazi bütövlüyü tanınıb və hər bir dövlətin müəyyən olunmuş sərhədləri var. Kəlbəcər rayonu isə Ermənistanla təxminən 136 kilometr sərhədə malikdir. Ermənistanın istəyindən asılı olmayaraq, beynəlxalq qanunlar var və o qanunların bir hissəsini Azərbaycan tərəfi özü icra edib və edəcək. Bir misal çəkim: hələ 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdi.

Ermənistan qoşunları işğal olunmuş torpaqlardan qeyd-şərtsiz dərhal çıxarılmalı idi. Şahidi olduq ki, nəinki Ermənistan tərəfi o qətnamələri icra etdi, əksinə, orada qeyri-qanuni məskunlaşmalar apardı və yeraltı-yerüstü sərvətlərimzi qeyri-qanuni talamaqla məşğul oldu. Beynəlxalq ictimaiyyət buna heç bir reaksiya vermədi. Azərbaycan Ordusu, Azərbaycan Ali Baş Komandanı BMT-nin qətnamələrini özü icra etdi. Bu beynəlxalq qurumlar da Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanıyır. Sadəcə olaraq aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, bəzi qurumlar reallığı qəbul edə bilmirlər.

***- Məlumdur ki, Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü-Zod və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 1993-cü ildə 2020-ci ilə qədər Ermənistan respublikasının işğalçı rejimi tərəfindən talan edilib. 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu ərazisindən çıxan Ermənistan qoşunları bu yatağı tam ələ keçirməyə çalışaraq noyabrın 25-də sərhədi 1,5 km irəli çəkmiş, yolda "sərhəd darvazası" quraşdırmışdı. Bir gün sonra Azərbaycan hərbçiləri həmin darvazanı sındıraraq Zoda daxil olublar. Hazırda Zodda Azərbaycan Ordusunun 3, Ermənistanın 1 postu var. Həmin qizil yataqlari ilə baglı vəziyyət nə yerdə qalıb?***

- Sovetlər dövründə və ondan sonra da Ermənistanın havadarlarını bilirik, tanıyırıq. Onlar həmişə Ermənistana dəstək olublar. Sovetlər ərəfəsində də ermənilər qızıl mədənlərinə yeraltı tunellər açaraq Azərbaycan sərhədini keçib sərvətlərimizi talayırdılar. Azərbaycan tərəfi bu barədə özünün münasibətini bildirsə də, o vaxt Moskva bu məsələyə bir o qədər də reaksiya vermədi. Bu gün yeni sərhədlərin müəyyənləşməsi təsdiqini tapandan sonra təbii ki, məsələlərə yenidən baxılacaq.

Əgər sərhədlər pozulubsa, yəni tunellər vasitəsilə Azərbaycan ərazilərinə keçmə varsa, bu məsələlər dərhal öz həllini tapmalıdır. Ermənistan hələ ki, Azərbaycanın sərhədlərini tanımır, sülh sazişinə imza atmayıb. Bu məsələ öz həllini tapandan sonra, yeraltı sərvətlərimizin qeyri-qanunu mənimsənilməsinin də qarşısı alınacaq. Ola bilər ki, yerin üstündə nəzarət var, amma ermənilər və onların havadarları yerin altına tunel çəkərək o ehtiyatlardan istifadə edirlər. Təbii ki, yerin üstündə heç nə görünmür. Azərbaycana aid olan ərazilərə sərhəd qoşunlarımız nəzarət edir. Bir tanınma məsələsi qalıb, o da həll olunandan sonra digər məsələlər yoluna qoyulacaq.

***- İşğaldan azad olunan bir çox ərazilərdə hələ də erməni yaraqlıları qalır və bir çox yerlərə sülhməramlılar nəzarət edir. Belə bir şəraitdə Kəlbəcərə gediş-gəliş necədir və yaxud rayonda aparılna bərpa işlərinin gedişi hansı səviyyədədir?***

- Kəlbəcər rayonunda sülhməramlı qüvvələr yoxdur. Sülhməramlılar Ağdərə ilə Kəlbəcərin sərhəd zonasındadır. Digər ərazilərimiz Azərbaycan Ordusunun nəzarətindədir. Kəlbəcərə gedən magistral yol tarixən Ağdərə rayonundan keçirdi. Hazırda sərhədlə bağlı bəzi məsələlər həllini tapmadığına görə sülhməramlılar o yola nəzarət edir. Eyni zamanda orada yaşayan separatçı rejimin silahlı dəstələri hələ ki orada var. Biz o yoldan müəyyən yüklərin daşınmasında istifadə edirik.

Vətəndaşlarımızın rayona qanuni şəkildə gedişi-gəlişi portala müraciət olunmaqla Murovdağ yolu ilə gerçəkləşir. O yol 1992-1993-cü il ərəfələrində çəkilmişdi, çox bərbad vəziyyətdə idi. İndi hazırda o yol genişləndirilib, gediş-gəliş rahatlaşıb. Paralel olaraq Göygöl rayonunun Toğanalı kəndindən Kəlbəcərə tunel yolu çəkilir. Artıq 500 metr tunel yolu işlənilib. Bu yol həm vaxt, həm yolun qısaldılması etibarilə çox sərfəli yol olacaq. Sərhəddə bəzi məsələlər öz həllini tapdıqdan sonra Ağdərə yolu da istifadəyə verilməlidir. Bu qaçılmazdır. Biz gözləyirik ki, sərhədlərimiz tanınsın, sərhədlər müəyyənləşib, sülh sazişi əldə etdikdən sonra daxildə olan xırda problemlər öz həllini tapacaq.

> *Kəlbəcərin işğaldan azad olunduğu gün, 25 noyabrda rayonun baş planı və perkpeksivlər barədə daha geniş məlumat ala biləcəyik*

Qeyd edim ki, Prezidentin səfəri ərəfəsində Kəlbəcərdə bir yarımstansiyanın açılışı oldu. Qısa zaman kəsiyində II yarımstansiya da istifadəyə verilməlidir. Bununla da Kəlbəcərdə enerji təminatı öz həllini tapır. Daha çox ərazinin elektrik enerjisi ilə təminatı rayonda bərpa -quruculuq işlərinə öz müsbət təsirini göstərəcək.

***- İşğaldan azad olunmuş rayonların baş planları hazırlanır və buna əsasən də hər bir rayonun gələcəyi, infrastrukturu, ponaraması barədə əhalidə ilkin təsəvvürlər formalaşır.***

- Cənab Prezidentin Qubadlı səfərində bu məsələyə də toxunuldu. Orda vurğulandı ki, digər rayonların, o cümlədən də Kəlbəcərin də baş planı işlənilib. Hələlik vəsait ayrılmasa da, bu istiqamətdə işlər gedir. Yəqin ki, Kəlbəcərin işğaldan azad olunduğu gün, 25 noyabrda rayonun baş planı və perkpeksivlər barədə daha geniş məlumat ala biləcəyik.

***- Əhalinin işğaldan azad olunmuş rayonlara köçürülməsi, oradakı yeniliklərin, hansısa abadlıq işlərinin aparılması, rayon camaatının işğaldan sonra öz rayonunda hansı yeni şəhər, yeni kəndlə qarşılaşacağı ilə bağlı müzakirələr, fikirlər daim səslənir. Kəlbəcərin gələcəyini necə görürsünüz? Aparılan işlərin fonunda əhalinin Kəlbəcərə köçürülməsi necə baş verəcək?***

- Prezident Kəlbəcərə ilk səfərində qeyd etdi ki, Kəlbəcər bəlkə də dünyanın ən füsunkar, ən gözəl yerlərindən biridir. Həqiqətən də Kəlbəcərin yeraltı və yerüstü sərvətləri çox zəngindir.

Belə başa düşürəm ki, yaxın gələcəkdə Kəlbəcərin iqtisadi potensialı həm bölgənin inkişafına, həm də dövlət büdcəmizə öz müsbət təsirini göstərəcək. Kəlbəcər eyni zamanda turizm sahəsi kimi diqqəti çox cəlb edən ərazilərimizdən biridir. Mütəxəssislər də vurğulayırlar ki, Kəlbəcər turizm üçün əlverişli bölgədir.

Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərimizdə "Ağıllı kənd, Ağıllı şəhər" konsepsiyası çərçivəsində dünyada mövcud olan ən mütərəqqi kəndlərin, şəhərlərin qurulması nəzərdə tutulub. Müəyyən məsələlərin daha yaxşı formada həllini tapması üçün enerji, istilik təchizatı ilə bağlı işlər görülür. Gözlənilir ki, xırda kəndlərin yaxın böyük kəndlərə birləşdirilsin. Eyni zamanda genişmiqyaslı layihələrin sürətlə həyata keçməsi belə ümid yaradır ki, tezliklə yaşayış məntəqələrinin tikintisinə başlanacaq. Qısa zaman ərzində həm ölkəmiz tərəfindən ayrılan büdcə vəsaiti, həm də dost ölkələrin yatırdığı investisiyalar hesabına bu bölgələrdə infrastruktur qısa müddətdə bərpa olunacaq və məcburi köçkünlərimiz ata-baba torpaqlarına qayıdacaqlar. Təbii ki, biz "Ağıllı kənd" konsepsiyasının bütün rayonlarda tətbiq olunmasını gözləyirik. Bu da gələcəkdə insanların rahatlığına böyük töhfə verəcək. Eyni zamanda Kəlbəcərdə digər infrastrukturların inkişafı işsizliyin və digər probemlərin aradan qaldırılmasına, insanların rifahına töhfə verəcək.

***- 1992-də Kəlbəcərin ərazisi artırıldı. Bizdə olan ərazilərin sovet dövrünün bölgüsü əsasında aparıldığı qeyd olunur. Bu barədə nələri söyləmək olar?***

- 1992-ci ildə Milli Məclisin qərarı ilə Ağdərə rayonu ləğv olunaraq Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürüldü. Ən çox ərazi Kəlbəcər rayonuna birləşdirilmişdi. Kəlbəcər rayonunun ərazisi 936 kilometrdir. Bu ərazilər rayona birləşdirildikdən sonra ərazisi 3050 kv.kilometrə bərabərdir. Çox təəssüflər olsun, bu gün rus sülhməramlılar Sovetlər dövründə məlum olan Ağdərə rayonu ərazisinə tam nəzarət edirlər. O ərazilərə ki, vaxtilə Kəlbəcərə birləşdirmişdilər. Ağdərənin 3 kəndi bizdə qeydiyyatdadır, mövcuddur.

Adları olub, özləri olmayan kəndlər də bizə məlumdur. O vaxt bizə 9 nümayndəlik, 18 kənd birləşdirilmişdi. Hazırda orada dediyim kimi, sülhməramlıların nəzarəti var. Yəqin ki, gələcəkdə bu məsələlər öz həllini tapacaq. Dövlət sərhədlərimiz müəyyənləşəndən sonra, müəyyən daxili problemlərimizi özümüz həll edəcəyik.

✍ *Tahirə Qafarlı*

## Söhbət

***Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxanla Hafta.az üçün söhbətimizdə Ermənistan və Qarabağdakı ermənilərin mövcud durumu, Azərbaycanın hay və alban kökənli ermənilər arasındakı fərqlərdən necə yararlanması, Ermənistandakı revanşist güclərin rəsmi Moskva ilə münasibətlərimizi pozmaq cəhdləri, Rusiyanın Qarabağdakı sülhməramlı sayılan kontingentinin yanlış addımlarını sivil qaydada cavablandırmağımızın vacibliyi və s. haqda danışdıq.***



**Əvəz Temirxan,**
Azərbaycan Liberal Partiyasının sədri

***- 44 günlük savaşdakı Zəfərimizdən sonra Ermənistan və Qarabağdakı ermənilərin, əslində hayların durumunu necə xarakterizə edərdiniz? Onların zəif durumda olmasına arxayın qala bilərikmi?***

# Qarabağ ermənilərinin milli kimlikləri əllərindən alınıb

- Əsla arxayınlaşmaq olmaz. Deyir, ilan yatar, amma düşmən yatmaz Hazırda Qarabağın bir hissəsi və Laçın dəhlizindəki mövcud durumu təhlil edərkən ilk növbədə nəzərə almalıyıq ki, Ermənistandakı, əslində Hayastandakı revanşist güclər həm etnik hay(!) lobbisinə, həm də haypərəst qüvvələrə arxalanır. Bu qəsbkar ölkə yeni hərbi doktrina qəbul edib və həmin doktrinaya əsasən hazırda onlar Azərbaycan dövlətinin büdrəməsini, ölkə daxilində milli barışığın pozulmasını gözləyirlər. Hayların ilkin planları şərait yaranan kimi, ən azı, Şuşa və Hadrutu yenidən işğal etməkdir. Büdrəməyimizi isə iki istiqamətdən: həm daxili, həm də xarici miqyasda təşkil etməyə çalışırlar. Yəni daxildə dövlət-xalq qarşıdurması yaratmaq, xaricdə isə aparıcı ölkələr və əsasən Rusiya ilə münasibətlərimizin pozulmasına cəhd göstərirlər.

Bunun üçün də hazırda Azərbaycanın müvəqqəti olaraq Rusiya hərbi kontingentinin nəzarətində olan ərazisində hər cür təxribat törətməyə çalışırlar, dəridən-qabıqdan çıxırlar ki, rus hərbçilərlə Azərbaycan ordusu arasında birbaşa silahlı qarşıdurma yaşansın və rəsmi Moskva ilə münasibətlərimiz pozulsun. Yəni revançist haylar istəyir ki, "atan yenə kazaklar" olsun. Onlar Rusiya hərbçilərinin arxasında gizlənib ordumuza, mülki insanlarımıza atəş açırlar ki, Azərbaycan ordusu əks atəş açmağa məcbur olsun və ara qızışsın. Biz belə təxribatlara qətiyyən getməməliyik...

***- Belə olan halda Rusiya "sülhməramlı"larının suverenliyimizi təhdid edən qeyri-adekvat addımlarına susmalıyıqmı? Məsələn, Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında Laçın rayonu "Dağlıq Qarabağın rayonu" kimi təqdim olunur, Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasından kənardakı strateji yüksəklik və kəndlərimiz, məsələn, Tərtər rayonunun Qapanlı kəndi həmin kontingentin nəzarət xəritəsinə daxil edilir...***

- Xeyr, belə hallara susmaq olmaz. Müvafiq qurumlar bu hallara sivil qaydada, amma tələb formasında reaksiya verməlidir. Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında Laçın rayonunun "Dağlıq Qarabağın rayonu" kimi təqdim edilməsi, Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasından kənardakı strateji yüksəklik və kəndlərini, məsələn, Tərtər rayonunun Qapanlı kəndini həmin kontingentin nəzarət xəritəsinə daxil etmək və s. kimi hallar qətiyyən qəbuledilməzdir.

> *Ermənistanı Hayastan edib məhv etməliyik. Bizerməni dediyimiz albanlarla hayları qarşı-qarşıya qoymalıyıq*

Dediyim kimi, məsələlərə Azərbaycanın müvafiq qurumları, Müdafiə və Xarici İşlər nazirlikləri və s. dərhal, yəni bir neçə gün, bir neçə ay sonra yox, belə məlumat alınan dəqiqədə reaksiya verməli və Rusiya tərəfindən bu səpkidə yanlış addımlara dərhal düzəliş verilməsini tələb etməlidir. Xahiş, təklif yox, tələb etməlidir Bunlar bizim suveren dövlətçilik hüququmuza daxil olan məsələlərdir. Odur ki, çox diqqətli və məsuliyyətli olmalıyıq. Belə görünür ki, Qarabağ "xəmir"i hələ çox su aparacaq...

***- Ermənistan və Qarabağdakı revanşist, radikal millətçi gücləri hərbi yox, sivil qaydada susdurmaq üçün nələri təklif edərdiniz?***

- Əvvəla, keçmiş Dağlıq Qarabağ ermənilərinin əksər hissəsinin xaçpərəst alban-türk kökənli olduğunu, Ermənistanda alban mənşəli əhalinin yarısının da "erməni" adı ilə haylaşdığını, onların milli və dini kimliklərinin əlindən alındığını gündəmə gətirməliyik. Bununla bizimlə düşmənçilik edən revanşist qüvvələrin arasına bir təfriqə salmalıyıq. Bu, gecikmiş addımdır. Hərbi cəhətdən qalib gəlmək hələ diplomatik və ideoloji cəbhədə də qələbə demək deyil. Bu sahədə xeyli tər tökməliyik...

Biz "Ermənistan" adlandırılan ölkədə haylarla albanlar arasında fərq qoymalı və bu fərqi görüb dərk etməliyik. Xalq diplomatiyasında da məhz alban kökənli qarabağlı və ermənistanlılarla işləməliyik. Onların milli və dini kimliyini özlərinə qaytarmasına çalışmalıyıq...

***- Siz özünü albanmənşəli hesab edən erməni görmüsünüzmü?***

- Bəli, dəfələrlə. Xaricdəki, o cümlədən Rusiyadakı müxtəlif tədbirlərdə belələrinə rast gəlmişəm. Bakıdan köçmüş bir neçə erməni hesab etdiyimizə deyəndə ki, sən hay deyilsən, albansan, türksən, azərbaycanlısan, bizim etnik kökümüz eynidir, sadəcə, yalnız dini təsəvvürlərimiz ayrıdır, inanın ki, onların çoxu sevinir. Azərbaycanda görkəmli şəxsiyyətlər var ki, onların qohumları müsəlmanlığı qəbul etməyiblər və onlar da Qarabağdakı xristian alban türklərlə eyni soydandır...

Əgər Qorbaçovun köməkçisi olmuş Georgi Şahnazarovun oğlu kinorejissor Karen Şahnazarov deyirsə ki, mən türk, müsəlman köklüyəm, əslim şuşalıdır və biz belə faktdan istifadə etmiriksə, daha nə deyək? Adam öz dili ilə deyir ki, mən hay deyiləm, albankökənliyəm. O, hələ Tovuz döyüşlərindən xeyli əvvəl deyirdi ki, Qarabağ Azərbaycanındır, biz Azərbaycanın tərkibində yaşamalıyıq...

***- Bəzi versiyalar da var ki, albanlar əslində xristianlığı qəbul etmiş qıpçaq türkləri olub...***

- Əslində bu, versiya deyil, həqiqətdir... Albanların arasında oğuzkökənlilər də var. Bir düşünək, "erməni" dediklərimizdə Ayrumyan soyadı, Türkmənyan soyadı haradandır?...

***- Sovet dövründə çəkilmiş "Dədə Qorqud" filmində qıpçaqlar qatı düşmənlərimiz kimi təqdim və təbliğ edilirdi...***

- Bəli. Özümüz öz başımıza oyun açmışıq. Hayların dəyirmanına su tökmüşük. "Sarı gəlin" türk mahnısıdır. Xristian qıpçaqlar da başlayıb o mahnını oxumağa. Sonra da haylar qriqorian kilsəsi vasitəsilə qıpçaq tayfaları ilə birgə "Sarı gəlin"i "hay"laşdırıb öz adlarına çıxıblar. Hər şey belə sadə olub. Bilirsinizmi, hazırda Ermənistanda Qıpçaq kəndi var...

Bir sözlə, bütün faktlar bizim lehimizədir. Sadəcə, çox vaxt tarixçilərimiz bilgisiz, faktsız hərəkət edirlər. Ermənistanı Hayastan edib məhv etməliyik. Biz erməni dediyimiz albanlarla hayları qarşı-qarşıya qoymalıyıq. Albanlara kömək etməklə hayların sonuna çıxmalıyıq. Onillərlə hay-türk qarşıdurmasında türklər ona görə məğlub olmayıb ki, biz zəifik, ona görə ki, biz öz taleyimizə biganəyik...

***- Tutaq ki, alban-türk mənşəli "erməni"lərlə hayları qarşı-qarşıya qoyduq. Sonra nə etməliyik?***

- Bütün bu deyilənlərdən yararlanaraq, Ermənistanın federasiyaya çevrilməsinə çalışmalıyıq. Ermənistanın yerində İrəvan-Zəngəzur, Qafqaz Albaniyası və Hayastan muxtar respublikalarından ibarət üçsubyektli federasiya qurulmalıdır. Həmin Qərbi Azərbaycan torpaqlarında oradan zaman-zaman qovulmuş Azərbaycan türkləri ilə yanaşı, Qarabağdakı əslində xristianlaşmış, haylaşmış türklər, qıpçaqlar olan albanlar və əsl haylar da yaşayır. Bilirsiz, "Sünik" alban türkcəsində sönük deməkdir. Yəni günbatan, günün sönük göründüyü yer...

Ermənistan federallaşmamışdan öncə Azərbaycan türklərinin Qərbi Azərbaycan torpaqlarına qayıdışını təmin etməliyik.

Bir sözlə, hazırkı geosiyasi durumda düşmənlərimizə həm də "yumşaq güc"lə hücum etməliyik. Siyasətimizi nə müdafiə, nə yarımmüdafiə, nə də əks-hücum üzərində deyil, hərbi əməliyyatlar olmayan şəraitdə bütün digər mümkün cəbhələrdə və həm də hər gün, hər saat, hər dəqiqə total, kütləvi hücum üzərində qurmalıyıq...

✍ **Sultan**

# Təhsildə daha çox hansı istiqamətlərə vəsait yönəldilməlidir?

## Layihə

***Müasir dövrdə hər bir ölkənin yeri əsasən təhsilin keyfiyyəti ilə xarakterizə olunur. Əlbəttə ki, təhsilin keyfiyyəti bilavasitə maliyyələşdirmənin həcmindən birbaşa asılıdır. Hazırda dünyanın hər bir dövləti öz büdcəsində təhsilə xərclər ayırır. Bu xərclərin həcmi və ümumiyyətlə dövlətin təhsil siyasəti əslində sosial siyasətin tərkib hissəsidir. Bütün digər sahələrdə olduğu kimi, təhsilə qayğı və təhsilin maliyyələşdirilməsinin səviyyəsi bu sahədə tətbiq edilən mexanizmlər fərqlidir. Ölkəmizdə də müstəqilliyin ilk günlərindən başlayaraq, keçmiş sovet təhsil sisteminin dəyişdirilməsi, yeni və daha keyfiyyətli müasir maliyyə mexanizmləri ilə zənginləşdirilmiş sistemin formalaşdırılması istiqamətində addımlar atılmaqdadır.***



Elə bu səbəbdəndir ki, təhsilə ayrılan vəsaitlər hər il əhəmiyyətli dərəcədə artırılır. Bu istiqamətdə artım gələn il də davam edəcək. 2022-ci ilin dövlət büdcəsi layihəsində yer alan məlumata görə, növbəti ildə təhsil sahəsinə 3 milyard 884 milyon 325 min 660 manat vəsait ayrılacaq. Layihədə qeyd olunub ki, həmin xərclərin 376 milyon 858 min 452 manatı məktəbəqədər təhsilə, 2 milyard 090 milyon 153 min 867 manatı ümumi təhsilə, 63 milyon 815 min 386 manatı peşə təhsilinə, 87 milyon 300 min 596 manatı orta ixtisas təhsilinə, 59 milyon 987 min 844 manatı ali təhsilə, 3 milyon 937 min 523 manatı əlavə təhsilə, 7 milyon 015 min 701 manatı təhsil sahəsində tətbiqi tədqiqatlara, 1 milyard 195 milyon 256 min 291 manat təhsil sahəsində digər müəssisə və tədbirlərə ayrılıb.

Dövlət əsaslı vəsait qoyuluşu xərclərindən ayrılmış 229,6 milyon manat vəsait nəzərə alınmaqla isə 2020-ci ildə təhsil xərclərinə dövlət büdcəsi xərclərinin 11,4 faiz həcmində (2019-cu illə müqayisədə 1,2 faiz-bənd çox) və ya 3003,9 milyon manat vəsait yönəldilib. Bu da 2019-cu illə müqayisədə 517,6 milyon manat və ya 20,8 faiz çoxdur. Son 5 ildə (2016-2020-ci illər) bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 0,6 faiz-bənd, natural ifadədə isə 1019,9 milyon manat və ya 1,6 dəfə artıb. Funksional təsnifata uyğun olaraq (dövlət əsaslı vəsait qoyuluşundan ayrılmış vəsait istisna olmaqla), təhsil xərcləri (cari) üzrə istifadə olunmuş vəsaitin 1632,1 milyon manatı və ya 58,8 faizi ümumi təhsil xərclərinin (2019-cu illə müqayisədə 367,8 milyon manat və ya 29,1 faiz çox), 500,5 milyon manatı və ya 18,0 faizi təhsil sahəsində digər müəssisə və tədbirlərin (məktəbdənkənar təhsil müəssisələrinin, ərazi maliyyə hesablaşma mərkəzlərinin və mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması saxlanılması xərcləri, publik hüquqi şəxslərə maliyyə yardımının (subsidiya) ayrılması, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri və təhsil sahəsində digər tədbirlər) (2019-cu illə müqayisədə 95,3 milyon manat və ya 25,3 faiz çox), 318,3 milyon manatı və ya 11,5 faizi ali təhsil xərclərinin (dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, "ADA" Universitetinin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Bakı Xoreoqrafiya Akademiyasının, Ədliyyə Akademiyasının və digər təhsil müəssisələrinin fəaliyyətinin təminatı ilə bağlı xərclər) (2019-cu illə müqayisədə 86,7 milyon manat və ya 37,4 faiz çox), 207,5 milyon manatı və ya 7,5 faizi məktəbəqədər təhsilin, 68,6 milyon manatı və ya 2,5 faizi orta ixtisas təhsilinin (2019-cu illə müqayisədə 8,2 milyon manat və ya 25,5 faiz çox) 4,0 milyon manatı və ya 0,1 faizi təhsil sahəsində tətbiqi tədqiqatların, 2,7 milyon manatı və ya 0,1 faizi əlavə təhsilin (2019-cu illə müqayisədə 1,0 milyon manat və ya 60,2 faiz çox) maliyyələşdirilməsinə yönəldilib. İqtisadi təsnifata uyğun olaraq təhsil xərcləri üzrə (cari) əməyin ödənişinə 2099,8 milyon manat (2019-cu illə müqayisədə 571,5 milyon manat və ya 37,4 faiz çox ), malların (işlərin və xidmətlərin) satın alınmasına 435,1 milyon manat, subsidiyalara, qrantlara və digər ödənişlərə 45,6 milyon (2019-cu illə müqayisədə 10,9 milyon manat və ya 31,4 faiz çox), sosial ödənişlərə 125,3 milyon manat (2019-cu illə müqayisədə 42,1 milyon manat və ya 50,6% çox), qeyri-maliyyə aktivlərinin (sosial, mədəni və məişət təyinatlı obyektlərinin əsaslı təmiri və yenidənqurmasına, maşın və avadanlıqlar, istehsalatda istifadə olunmayan qeyri-maddi aktivlər və s.) alınmasına 68,4 milyon manat (2019-cu illə müqayisədə 27,5 milyon manat və ya 67,2 faiz çox) vəsait sərf edilib. Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrində hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarının 2019/2020-ci tədris ilində 30,0 faizədək artırılması təmin edilib. 2020-ci ilin dövlət büdcəsinin təhsil xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri isə 12,8 milyon manat təşkil edib.

> *"Gələn il hökümət təkcə ümumi təhsilin inkişafına 2 milyard manatdan artıq vəsait xərcləməyi planlaşdırıb*



**Elçin Əfəndi,**
təhsil eksperti

2021-ci ilin dövlət büdcəsindən isə təhsil sahəsinə 3 277 655 549,0 manat vəsaitin ayrılması nəzərdə tutulub. Belə ki, məktəbəqədər təhsil üçün 319 352 315,0 manat, ümumi təhsil üçün 1 764 680 611,0 manat, peşə təhsili üçün 51 143 908,0 manat, orta ixtisas təhsili üçün 71 043 059,0 manat, ali təhsil üçün 60 852 036,0 manat, əlavə təhsil üçün 3 415 815,0 manat, təhsil sahəsində tətbiqi tədqiqatlar üçün 5 982 239,0 manat, təhsil sahəsində digər müəssisə və tədbirlər üçün 1 001 185 566,0 manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bəs, görəsən, təhsilə ayrılan vəsaitlərin həcmini yetərli hesab etmək olarmı? Təhsil sahəsində daha çox hansı istiqamətlərə vəsait yönəldilməsinə ehtiyac var?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədov qeyd edib ki, son 5 il ərzində dövlət büdcəsindən təhsilə ayrılan vəsait kəskin şəkildə artıb: "Yəni, əgər bu vəsait 2015-ci ildə 1 milyard 400 milyon manat üzərində idisə, artıq 4 milyarda yaxındır.** Büdcənin belə kəskin artması Prezidentin təhsilə olan diqqətini göstərir. Azərbaycan Prezidentinin siyasəti ondan ibarətdir ki, ölkəmizdə təhsil inkişaf etməlidir, dünayada rəqabətə davamlı iqtisadiyyat formalaşmalıdır. Ölkədə təhsil büdcəsinin bu qədər artırılması müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, tələbələrin təqaüdünün artırılmasına, elmi tədqiqat işlərinin artmasına yönləndiriləcək. Ona görə ki, burda əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanması orta ixtisas, peşə ixtisas müəssisələrində həyata keçirilir.

Azərbaycanda təhsil müəssisələrinin beynəlxalq rəqabətinin artmasına diqqət ayırmaq lazımdır. Eyi zamanda bəzi rayonlarımızda mövcud olan qəzalı vəziyyətli məktəblərin təmirinə, dərslik siyasətinin yenidən qurulmasına diqqət ayırılmalıdır. Təbii ki, bu il də təhsil sahəsinə ayrılan vəsaitdə artım var. Bir məsələni qeyd edim ki, vəsaitin bölünməsində vacib məsələlər yenə arxa planda qalıb. Təəssüf ki, elmi istehsalata, elmi tədqiqatlara yenə də az vəsait ayrılıb. Əgər gənclərin elmə gəlməsini təşviq etmək istəyiriksə, bu sahəyə ayrılan vəsaitin miqdarı çox olmalıdır. Yəni vəsait elə bir həddə olmalıdır ki, yeni elmi araşdırmalar, elmi tapıntılar üçün əlverişli imkanlar yaransın. Elmlə məşğul olmaq istəyənlərdə həvəs yaransın, görsünlər ki, fəaliyyət üçün imkanlar var. Ümumilikdə təhsilə ayrılan təqribən 4 milyard manat ciddi rəqəmdir, lakin bu məbləğdə elmin payı yenə azdır".

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Elçin Əfəndi isə öz açıqlamasında növbəti tədris ilinin büdcəsindən müəllimlərin əməkhaqqının artırılmasına diqqət yetirilməsinin zəruriliyini önə çəkib:**

"Yaxşı olardı ki, müəllimlərin əməkhaqqına artım edilsin. Bu, müəllimlərin daha həvəslə çalışmasına şərait yaradar və beləliklə, təhsilin keyfiyyəti əvvəlki dövrlərlə müqayisədə yüksək olar. Eyni zamanda ali təhsil müəssisələrinə hazırlaşan və nəticələri yüksək olan abituriyentlərin təkmilləşdirilməsi üçün də büdcədən pul ayırmaq məqsədəuyğun ola bilər. Bütün bunlarla yanaşı, biz ayrılan vəsaiti distant təhsil üçün xərcləməyi nəzərdə tutmalıyıq. Pandemiya dönəmində distant təhsillə bağlı bir sıra çətinliklərlə üzləşdik. İlk növbədə auditoriyalarda informasiya texnologiya alətləri quraşdırılmalı, imkan varsa, təhsil alan və verən şəxslərin də müasir texnoloji avadanlıqlarla təchizinə şərait yaradılmalıdır".

### Yeri gəlmişkən...

**Dövlət əsaslı vəsait qoyuluşu xərclərindən ayrılmış vəsait də (294,1 milyon manat) nəzərə alınmaqla, 2019-cu ildə təhsil xərclərinə dövlət büdcəsi xərclərinin 10,2 faizi həcmində (2018-ci illə müqayisədə 0,4 faiz-bənd çox) və ya 2 milyard 489,8 milyon manat vəsait yönəldilib ki, bu da 2018-ci illə müqayisədə 272,9 milyon manat və ya 12,3 faiz çoxdur.**

***Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiyada təyyarə qəzası baş verib. "An-12" təyyarəsi İrkutsk yaxınlığında qəzaya uğrayıb. Hadisə nəticəsində iki nəfər ölüb, 5 ekipaj üzvündən isə xəbər yoxdur. Qeyd edək ki, ilkin olaraq təyyarənin radardan itməsinə dair xəbərlər yayılıb.

■ "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarla tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği 3 min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (qoyuluşları) yalnız nağdsız qaydada həyata keçirilə biləcək.

■ İxtisaslaşmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsi ilə avtomobil satışı üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçiriləcək. Bu, "Nağdsız hesablaşmalar haqqında" qanun təklif edilən dəyişiklikdə əksini tapıb.



■ Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin Moskvada ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Bernslə görüşüb. Bu barədə Rusiya Xarici Kəşfiyyat Xidmətinin mətbuat xidməti məlumat yayıb. Amerika tərəfinin təşəbbüsü ilə keçirilən görüşdə S. Narışkin və U. Berns Rusiya və ABŞ-ın beynəlxalq terrorçuluğa qarşı mübarizədə əməkdaşlığını müzakirə ediblər.

■ Bu ilin yanvar-sentyabr aylarında Bakıda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 5,6% artaraq 3 167,9 mln. manat olub. Hüquqi şəxslər tərəfindən əhaliyə 2 816,2 mln. manatlıq xidmət göstərilib ki, bu da xidmətlərin ümumi dəyərinin 88,9%-ni təşkil edib.



■ Ucar rayonunda məktəb direktoru koronavirusdan dünyasını dəyişib. Ucar rayonu Ənvər Məmmədxanlı kənd orta məktəbinin direktoru, 1960-cı il təvəllüdlü Maya Sədyar qızı Qədirova müalicə aldığı paytaxt xəstəxanalarından birində ötən gün vəfat edib.

■ Bu gün məktəblərin tamamilə distant tədrisə keçirilməsi gündəmdə deyil. Bunu Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdir əvəzi Orxan Abbasov deyib. O bildirib ki, çünki məktəblərdə koronavirusla əlaqəli kritik vəziyyət yoxdur: "Əgər bu barədə hər hansı qərar qəbul edilsə, ictimaiyyətə əvvəlcədən məlumat veriləcək. Bu günə olan məlumatlar vəziyyətin gərgin olmadığını göstərir".

# Kreditlər bahalaşacaq?



**Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsi artırıb. Belə ki, AMB-ın İdarə Heyəti uçot dərəcəsinin 0,5 faiz bəndi artırılaraq 6,5 faizdən 7 faizə çatdırılması barədə qərar qəbul edib. Bu barədə qurumun sədri Elman Rüstəmov keçirdiyi mətbuat konfrasında məlumat verib.**

Onun sözlərinə görə, faiz dəhlizinin aşağı həddi 6 faiz saxlanılıb, yuxarı həddi isə 7 faizdən 8 faizə çatdırılıb. AMB İH-nin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı dekabrın 17-də ictimaiyyətə açıqlanacaq. Bəs, görəsən, Mərkəzi Bankın bu qərarı kreditlərin bahalaşması ilə nəticələnə bilərmi?

■ **Məsələni hafta.az-a şərh edən bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov deyib ki, əslində, Mərkəzi Bankın bu addımı atacağı gözlənilən idi. Onun sözlərinə görə, qurum bu addımı ilə inflyasiyanı cilovlamağa çalışır:**

"İqtisadi nəzəriyyəyə görə, uçot dərəcəsi Mərkəzi Bankın banklara verdiyi kreditin faiz dərəcəsidir. Yəni, Mərkəzi Bank istənilən qədər pul çap edib banklara kredit şəklində verə bilər. Bu zaman ciddi infilyasiya baş verəcək. Buna görə Mərkəzi Bankın da əsas məqsədi qiymətlərin sabitliyidir. Yəni, manat sabit olmalıdır. Bu baxımdan infilyasiya təhlükəsi yarandıqda faiz dərəcəsini artırır. Əksinə, Mərkəzi Bank görəndə ki, inflyasiya çox aşağıdır, o zaman uçot dərəcəsini endirir ki, iqtisadi aktivlik yüksəlsin. İndi görürük ki, Tarif Şurasının son qərarları ilə qiymətlər artdı. Eyni zamanda, xaricdən gətirilən avtomobillərin, telefonların rüsumu artırıldı. Bunların hamısı inflyasiyanı şərtləndirən amillərdir. Mərkəzi Bank da yüksək inflyasiyanın qarşısını almaq üçün uçot dərəcəsini dərhal artırır. Bu, iqtisadi nəzəriyyədir. Xaricdə proses bu nəzəriyyəyə uyğun gedir. Hər bir bank Mərkəzi Bankdan şəffaf, rahat qaydalarla kredit əldə edə bilir. Bizdə proseslər heç də belə getmir. Hər bank və ya bank olmayan kredit təşkilatı Mərkəzi Bankdan kredit götürə bilmir. Düzdür, qanuna görə götürməlidir, amma bunun üçün şəffaf şərait yaradılmır. Bu baxımdan faiz dərəcəsi endirilsə də, qaldırılsa da, bazara heç bir təsiri yoxdur. Məsələn, 5-6 il bundan əvvəl Mərkəzi Bankın uçot dərəcəsi 2-3 faiz idi. Amma biz baxsaq bankların həmin dövrdəki faiz dərəcələrinə olduqca yüksək idi. Əslində isə iqtisadi qanunauyğunluğa görə kreditlər həmin dövrdə daha ucuz olmalı idi.Yəni, məntiqlə Mərkəzi Bankın bu qərarından sonra kredit faizləri artmalıdır. Amma artmayacaq, bu qərar sadəcə ona görə verilib ki, baxın biz də nə isə bir iş görürük ".

***Sevinc***

# Aviabiletlər ucuzlaşacaqmı?

**Digər ölkələr ilə müqayisədə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti şirkətində (AZAL) istənilən istiqamətə bilet qiymətlərinin təxminən iki dəfə baha olması məsələsi ölkədə tez-tez gündəmə gələn məsələlərdən biridir.**



Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında aviabiletlərin qiymətləri ilə əlaqədar "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL) şirkətinin fəaliyyətinə tənqidlə yanaşması da oldu. Daha sonra mövzu millət vəkili Qənirə Paşayeva tərəfindən Milli Məclisdə də gündəmə gətirildi. Ancaq hələ də xarici uçuşlarda qiymətlər necə deyərlər "od tutub yanır". Xatırladaq ki, yaxın günlərdə Füzuli Beynəlxalq Hava Limanının açılışı oldu. Gələcəkdə isə, azad edilmiş digər ərazilərdə - Laçın və Zəngilanda aeroportların istifadəyə verilməsi nəzərdə tutulur. Bəs görəsən, yeni fəaliyyətə başlayacaq hava limanları biletlərin qiymətinə nə kimi təsir göstərəcək? Şaxələndirilmiş hava nəqliyyatı qiymətlərin ucuzlaşmasına şərait yarada bilərmi?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) Mətbuat katibi Paşa Kəsəmənski bildirdi ki, ölkədaxili uçuşların qiymət məsələləri Tarif Şurası tərəfindən tənzimlənir. O ki qaldı, yeni açılacaq hava limanlarının xarici uçuşlar zamanı qiymətlərə təsirinə, mətbuat katibi bununla bağlı hələlik məlumatının olmadığını bildirdi:**

"Yeni açılacaq hava limanlarının xarici uçuşların ucuzlaşmasına təsir edib-etməyəcəyi ilə bağlı bizdə hələlik heç bir məlumat yoxdur. Əgər hər hansı bir yenilik olarsa mətbuata açıqlama veriləcək".

■ **İqtisadçı ekspert Xalid Kərimlinin sözlərinə görə, ölkədə yeni hava limanlarının açılmasının daşınma qiymətlərinə və uçuşlara heç bir təsiri olmayacaq: "Xatırlayırsınızsa, bundan öncə də ölkəmizdə bir neçə aerport fəaliyyətə başlamışdı. Bura Naxçıvan, Lənkəran, Zaqatala, Qəbələ hava limanları daxildir".**

Ekspert hesab edir ki, ölkədə hava nəqliyyatının ucuzlaşması üçün ilk növbədə aerportların idarə edilməsi AZAL-ın manopolyasından çıxarılmalıdır: "Burada həm aeroportların, həm də uçuşların idarə olunması eyni şirkətdə cəmlənməsi rəqababətli mühitin yaranmamasına səbəb olur. Bundan başqa, əgər biz ucuz hava nəqliyyatı və keyfiyyətli xidmət istəyiriksə burada aeroportların və AZAL-ın özəlləşdirilməsi vacibdir. Biz özəlləşdirməyə getsək, onda rəqabət yaranar və ucuz qiymət, keyfiyyətli xidmət görə bilərik".

***Banu***

# Rusiya yenə də diplomatik minaları basdırır



**Üzeyir Cəfərov,**
hərbi ekspert

***44** günlük müharibədə qazandığımız böyük zəfərin və 10 Noyabr üçtərəfli atəşkəs sazişinin imzalanmasından 1 il keçir. Ermənistanın Azərbaycan torpaqları üzərindəki işğalına son qoyulsa da, ölkəmiz hələ də müəyyən xarici təsirlərin altında özünün tam suverenliyini və sərhədlərinin bütövlüyünü, təhlükəsizliyini qorumaq üçün mübarizəsini davam edir. Ermənistan Azərbaycan ərazilərindən silahlı dəstələrini çıxarmayıb və hələ də Rusiya sülhməramlılarının iştirakı ilə humanitar dəstək adı altında regiona yerləşməkdə davam edir. Kapitulyasiyaya imza atan, lakin onun tələblərinə əməl etməyən Ermənistan öz məkrli niyyətlərini yenidən dirçəltmək üçün havadarlarının dəstəyi ilə pusquda dayanıb.*

## Müsahib

Azərbaycan isə əksinə, Ermənistanı sülh sazişinə dəvət edir və Rusiyanın vasitəçiliyi ilə dövlət sərhədlərinin yenidən müəyyənləşdirilib regionda sülh və sabitliyin, infrastrukturun inkişafı, kommunikasiyaların açılması, qaçqın və məcburi köçkünlərimizin öz yurdlarına qayıdışının təşkili üçün bərpa işlərini davam etdirir. Bölgədə mövcud vəziyyət istənilən sabitliyin yaranmasına imkan verirmi?

**Müsahibimiz hərbi ekspert Üzeyir Cəfərovdur.**

***- Zəfər günümüz yaxınlaşır. 10 Noyabrda imzalanan üçtərəfli atəşkəs sazişindən sonra 3 rayonumuz-Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan azad edidi. Proseslər addım-addım irəliləyir və ərazilərimizdə-sülhməramlı, Laçın dəhlizi, erməni silahlılarının çıxarılması ilə bağlı müəyyən mübahisəli məqamlar hələ də qalır. Bölgədə hərbi vəziyyət istənilən sabitliyin yaranmasına imkan verirmi, hansı ürəkaçan yenilənmələri müşahidə edirsiniz?***

- Hər birimiz Zəfər tariximizin ildönümünü böyük səbirsizliklə gözləyirik. İnşAllah bir neçə gündən sonra o möhtəşəm tarixi bir yerdə qeyd edəcəyik. Bu, Azərbaycan xalqının, bütün Türk dünyasının ermənyə verdiyi hərb dərsdir. O dərsdir ki, 30 ilə yaxın müddətdə dünyanın söz sahibi olan dövlətlərinin həll edə bilmədiyi məsələni Azərbaycan oğulları, əsgərləri, zabitləri həll etdilər. Fürsətdən istifadə edib canı-qanı ilə torpaqların alınmasında iştirak etmiş əzgər və zabitlərimizə təşəkkür edirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram.

Hər birimiz, bu zəfər ilinin tamamında yeni nələrinsə baş verəcəyini gözləyirik. Əvvəla, regionla bağlı mühüm sənədin imzalanması gözlənilir. Ermənistan və ona havadarlıq edən qüvvələr oyun qaydalarını pozmasalar, həmin sənədin şahidi olacağıq. Bu sənəd bizə əlavə üstünlüklər verəcək.

Müharibəni Azərbaycan xalqının xeyrinə həll eləmiş tərəfik. Burada bizim dediklərimiz olmalıdır və bizim şərtlər işləməlidir. Amma müəyyən qüvvələr də var ki, onlar var gücü ilə bu prosesi pozmağa çalışırlar. Onların bu niyyətlərinin baş tutacağını düşünmürəm. Ümid edirəm, yaxın günlərdə daha xoş xəbərlər eşidəcəyik. Bu da ondan ibarətdir ki, ərazilərimizdə olan erməni tör-töküntülərinin ağıllandırılma prosesi olacaq və onu da qəhrəman Ordumuz həyata keçirəcək.

Bu hansı formada olacaq? Əgər erməni tör-töküntüləri ağıllarını başlarına yığmayacaqlarsa, mütləq mənada onlara güc tətbiq olunacaq. Yox, əgər ağıllarını başlarına yığacaqlarsa, silahlarını təhvil verib Azərbaycan qanunları ilə yaşayacaqlarsa, yaşasınlar. Biz qalib tərəf olaraq dəfələrlə təkliflərimizi vermişik. Bu günlərdə Romada keçirilən "G-20" sammitində də qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərlə görüşündə dedi ki, Azərbay-

> *Yaxın zamanlarda ərazilərimizlə bağlı xoş xəbərlər eşidəcəyik*

can öz sülh təklifini irəli sürüb. Hadisələri qabaqlamaq istəmirəm. Yaxın zamanlarda ərazilərimizlə bağlı xoş xəbərlər eşidəcəyik.

***- 8 Noyabrda Zəfər gününü qeyd edəcəyik. Ondan sonra gələn 10 Noyabr sazişinin isə 1 ili tamam olacaq. Həmin ərəfədə Moskvada 3 tərəfli növbəti görüş olmalıdır. Orada "Hansı sənədlərə imza atıla bilər?" müzakirələrinin hədəfində budur...***

- Düşünmürəm ki, yaxın zamanda sülh sazişi imzalanacaq. Bu, Azərbaycandan asılı olan məsələ deyil. Daha çox bədnam qonşularımızın hikkələri, iddiaları ilə bağlı olan məsələlərdir. Ermənistanı əllərində alət edən bəzi qüvvələr buna imkan vermək istəmirlər. Ermənilərə qalsa, onlar onsuz da gec-tez öz qərarlarını verməlidirlər. Hələ də öz yollarını, istiqamətlərini müəyyən etməyiblər. Unutmayaq, bu həmin ermənidir ki, zaman-zaman Azərbaycan xalqına qarşı cinayətlər, soyqırımlar törədib. Belə fikir yaradır ki, müəyyən vaxtdan sonra onların erməni xəstəlikləri baş qaldırır. Ona görə də ermənilərlə bağlanan sülh sazişini etibarlı görmürəm. Ermənilər regionda marağı olan güclərin əlində alətdir və o alətdən yenə də istifadə edə bilərlər. Ona görə də silahımızı dolu saxlamalıyıq.

***- Ermənistanın belə məğlub vəziyyətində "sülh sazişi"ndən yayınmağa gücü varmı?***

- Sənədlər hazırlanıb. Onun detalları 3 tərəfli şəkildə razılaşdırılıb. Bu sənəd noyabrın birinci ongünlüyündə imzalanmalıdır. Ola bilər ki, prosesi uzatmaq üçün hansısa bəhanə ortalığa atılsın. Bu prosesdə qarant rolunu Rusiya oynayır. Ona görə də hesab edirəm, ən azı, sənədin imzalanması həyata keçiriləcək. Sənədin necə realizə olunması - bu başqa problemdir. Bir məsələni də xatırladım ki, 2020-ci il Zəfər tariximizdən sonra Rusiya sülhməramlıları bölgəyə gəldilər. Üçtərəfli Bəyannamənin 4-cü bəndində var idi ki, Rusiya sülhməramlılarının bölgəyə daxil olması ilə ermənilərin silahlı qüvvələri çıxarılsın. Bir il keçsə də, bu istiqamtədə addım atılmayıb. Bu bizi düşündürür. Əksinə, bölgədə bəzi süni problemlər yaradırlar. Azərbaycan əsgərlərinin yerləşdiyi ərazilər atəşə tutulur. Ümid edirdik ki, sülhməramlıların yerləşdiyi ərazilərdə sülh bərqərar olacaq, atəşkəs pozulmayacaq, amma əsgərlərimizdən də şəhid oldu. Sonuncu itkimiz oktyabrın 14-də Əfqan Həmzəyev idi. O, sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidən snayper atəşi ilə vurularaq şəhid oldu. Ona görə də əminliklə desəm ki, hər şey yaxşı olacaq, bu doğru olmaz. İmzalanacaq sənəddə Ermənistan faktoru var. Ümid edirik, bu ilin sonunda məsələlər öz həllini tapacaq.

***- Sülh sazişində Rusiya faktorunun olduğunu dediniz. Son vaxtlar "Putin planı" deyilən bir sazişin imzalanmasından da danışırlar. Ekspertlər hesab edirlər ki, sərhədlərin müəyyənləşməsi, delimitasiyası, demorkasiyası, sülh sazişi Rusiyanın cızdığı xəritələri əsasında reallaşa bilər...***

- Yaxınlarda Vladimir Putin Valday forumunda regionla bağlı bəzi narahatlıq doğuran fikirlər səsləndirdi. O, məlum çıxışında "kompromis" sözünü işlətdi. Anlaya bilmirəm, Azərbaycan bundan artıq hansı kompromisi etməlidir ki, həm Rusiya, həm də Ermənistan bundan razı qalsın. Biz 30 il müddətində dəfələrlə danışıqlara getdik.

Bunlara "ən yüksək status, ən yüksək muxtariyyət, nə mümkündüsə təklif etdik, amma özümüz deyib, özümüz eşitdik. Məcbur qalıb əks-hücum nəticəsində torpaqlarımızı hərb yolu ilə azad etdik.

Mənim üçün şəhidlər ən ağrılı mövzudur. Bizim doğmalarımız, əzizlərimiz həyatlarını itirdilər. Xeyli insanımız xəsarət aldı. Çoxları ömürlük əlil qaldı. Rusiya yenə də Azərbaycandan "kompromis" istəyir. Bu söz məni qətiyyən açmadı. Qalib tərəf olmağımıza baxmayaraq, Rusiya ortaya yeni hoqqalar çıxarmaq istəyir. Əlbəttə, bu narahat etməyə bilməz. Rusiya yenə də diplomatik minalarını basdırır. Əslində, bu məsələdə söz sahibi Azərbaycan olmalıdır. 44 günlük Vətən savaşında Dəmir Yumruqla sözümüzü dedik, ərazi bütövlüyümüzü bərpa etdik.

Düzdür, bəzi texniki xarakterli problemlər qalır. Söhbət Xankəndi, Xocalı, Xocavənddən gedir. Sənədlər imzalanarkən söhbət Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərindən gedəcək. Bu ərazilər BMT qətnamələrində öz əksini tapıb. Əgər söhbət XXI əsrin 2021-ci ilində imzalanacaq sənədindən gedəcəksə, orada Azərbaycanın beynəlxalq hüquqla tanınan əraziləri öz təsdiqini tapmalıdır. Bu narahatlıqlara son qoyulması üçün sənədin imzalanması və reallaşdırılması mütləqdir.

***- Prosesdə Türkiyə niyə görünmür?***

- Türkiyə bəlli məqamda hadisələri yaxından izləyir və proseslərin içindədir. "Böyük 20-lər"in sammitində Ərdoğanla ABŞ Prezidenti Co Bayden arasında danışıq oldu. Danışıqların bir bəndi də Cənubi Qafqaz, regionla bağlı idi. Ötən həftə Füzulidə Beynəlxalq Hava Limanının açılışında Türkiyə rəsmisi şəxsən iştirak etdi. Füzuli Hava Limanında Türkiyə təyyarəsinin görünməsi, Rəcəb Tayyib Ərdoğanın iştirakı Türkiyənin regionda olması bariz nümunədir.

***- Sülhməramlıların regiondan çıxışı üçün hansı zəmin hazırdır?***

- Rusiya sülhməramlılarının bölgədən çıxıb-getməsinin tərəfdarlarından biri də mənəm. Onlar bölgəyə daxil olarkən erməni siahlı birləşmələrini çıxarmalıydılar. Bunu etmədilər və bu o deməkdir ki, sülhməramlılar regionda uzun müddət davam edə bilməzlər. Bir il tamam deyil, Rusiya sülhməramlılarında 3 komandanlıq dəyişib. Bu, yaxşı hal deyil. Ona görə də sülhməramlılar özləri öz gedişləri üçün zəmin hazırlayıb...

✍ *Tahirə Qafarlı*

# Qarabağda, Zəngəzurda "ağıllı bələdiyyə"




## Araşdırma

◂ əvvəli 1-ci səhifədə

Yeni layihələrdə də nəzərdə tutulur ki, xırda kəndlər tədricən birləşdirilsin və mərkəzə yaxın olsun ki, orada lazımı infrastruktur yaratmaq asan olsun. Məsələn, Zəngilanda ağıllı kənd layihəsi həyata keçirilir, bu o deməkdir ki, həmin ərazidə ağıllı da bələdiyyə olmalıdır. Sizə bir məqamı da xatırladım ki, Azərbaycanda ilk dəfə bələdiyyə institutu təsis ediləndə 2757 bələdiyyə yaradılmışdı. Demək olar ki, bütün yaşayış məntəqələrində bələdiyyə institutu formalaşdırılmışdı. Amma sonradan müşahidə edildi ki, xırda bələdiyyələrin heç bir fəaliyyəti yoxdur. 2008-ci ildə bu sahədə islahatlar aparıldı və 100-ə yaxın bələdiyyə azaldıldı. Növbəti mərhələdə isə təxminən 200-ə yaxın bələdiyyə ləğv olundu və onlar birləşdirildi, bir qədər iri bələdiyyəyə çevrildilər. Sözsüz ki, bu prinsip gələcəkdə yenə də davam etdirilməlidir".

### "...adları olur torpaqsatan"

**Azərbaycanın 20 illik bələdiyyə təcrübəsinin işğaldan azad olunmuş ərazilərdə yeni özünüidarəetmənin formalaşdırılmasında mühüm rol oynayacağı qənaətində olan həmsöhbətimiz deyib ki, ölkəmizdə yaxşı təcrübəyə malik kifayət qədər bələdiyyə var:** "Bu gün Azərbaycanda yaxşı, işinin öhdəsindən gələ bilən bələdiyyələr mövcuddur. Müharibədən əvvəlki illərdə bələdiyyələr 4000-dən artıq layihə həyata keçiriblər. Bəzən gözə görünmür, amma işləyən bələdiyyələr var. Bələdiyyənin formalaşması, işgüzarlığı oradakı kadrlardan asılıdır. Bələdiyyə üzvlərinin, sədrlərinin təşəbbüskarlığı olmalıdır. Onlar oturub kimdənsə göstəriş gözləməməlidirlər. Bir çoxları oturub gözləyir ki, ya icra orqanlarından, ya hansısa təşkilatdan, ya da mərkəzi aparatdan bunlara göstəriş gələcək. Bələdiyyələrin imkanı var ki, çox işləri görsünlər. Onların yaxşı təşəbbüsü varsa, qabağını heç kəs almır. Əgər bələdiyyə yaşıllıq salırsa, ona kim mane ola bilər? Heç kim mane olmaz. Ya da bələdiyyə öz imkanları hesabına uşaq bağçası tikirsə bu rayonun ziyanınadırmı? Əlbəttə ki, deyil. Bəzən deyirlər ki, bələdiyyələr torpaq satdı və s. Bu da bələdiyyənin səlahiyyətində olan bir məsələdir. Bələdiyyə torpağını sata da, uzunmüddətli icarəyə də verə bilər. Bu işi nöqsanlı edirlər deyə, adları olur torpaqsatan. Ona görə hesab edirəm ki, yeni ərazilərdə bələdiyyə seçkiləri keçiriləndə daha səriştəli, daha qabiliyyətli, savadlı adamlar bələdiyyələrə gəlməlidir. Peşəkar komanda olanda bələdiyyənin də işi uğurlu olur. Müharibə dövründə biz gördük ki, bələdiyyələr də bu prosesdə yaxından iştirak etdilər, insanların yanında oldular, döyüşə gedən bələdiyyə üzvləri də oldu. Əlbəttə ki, 100 illik təcrübəsi olan bələdiyyələrlə Azərbaycan bələdiyyələrini eyni tərəziyə qoymaq olmaz. Köklü bələdiyyələrin külli miqdarda vəsaitləri var, o vəsaitləri onlar qazanıblar, xeyli müəssisələri var. Bizdə də inkişaf ona doğru gedir ki, bələdiyyələr yüksək səviyyədə formalaşmalıdır. Dövlət də bu prosesdə maraqlıdır".

### Pay torpaqları məsələsi

**İşğaldan azad olunmuş ərazilərdə sakinlər arasında pay torpaqlarının bölgüsü məsələsinə də toxunan komitə sədri bildirib ki, Qarabağ bölgəsi işğal altında olduğu üçün indiyə kimi həmin ərazilərdə torpaq islahatı aparmaq mümkün olmayıb:**

"Bununla bağlı işlərə başlanıb. Pay torpaqlarının bölgüsü ilə bağlı qeydiyyat işləri aparılır, ərazilər müəyyənləşib və ilkin xəritələri hazırlanıb. Əhali həmin ərazilərə qayıtdıqdan sonra bu məsələlər tam şəkildə öz həllini tapacaq. Vaxtilə bu ərazilərdə də kolxoz və sovxozlar olub, orada çalışan insanlar olub. Burada bir məsələ var ki, o vaxtı pay torpaqları aqrar islahatlar əsasında bəzi yerlərdə 1986-96-cı illərdə işləyənlər üçün müəyyən olundu. Həmin adamların çoxu artıq dünyasını dəyişiblər. Bundan sonra proses yeni bir qaydada, tutaq ki, oğullarına, qızlarına bu torpaqlar verilə bilər. Düşünürəm ki, məsələ bu yolla həllini tapacaq. Bu gün sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafında pay torpaqları xüsusi rol oynayır". Deputat deyib ki, pay torpaqlarının bölgüsü hər bir ərazinin əhali sayından asılıdır: "Bu məsələ əhalinin sayından asılıdır. Əvvəllər də başqa rayonlarda torpaqlar sakinlərə veriləndə əhalinin sayı nəzərdə alınırdı. Elə kənd, rayon var ki, onların torpaq ehtiyatı çoxdur. Ola bilər ki, ərazidə bələdiyyə, pay torpaqları üçün daha böyük sahələr ayrılsın. Elə ərazi var ki, əhalisi çoxdur, ərazisi kiçik. Bunların hamısı nizamlanmalıdır. Aqrar islahatlar bu formada qanunauyğun aparılmalıdır".

### Səlahiyyətlər artırılmalı, dayanıqlı maliyyə təmin olumalıdır

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən "Mülki Cəmiyyətə Doğru" İctimai Birliyinin sədri Abil Bayramov deyib ki, bu məsələdə ilk addım bələdiyyələrin həqiqi, real seçkilər əsasında formalaşdırılmasıdır:** "Yəni, vətəndaşların etimadını qazanan insanlar bələdiyyə üzvləri seçilməlidir. Belə olmayanda hesabatlılığı təmin etmək mümkün olmur. Əgər həqiqətən əhali tərəfindən seçilən bələdiyyə qurumları formalaşdırılarsa,

> *Bu gün Azərbaycanda yaxşı, işinin öhdəsindən gələ bilən bələdiyyələr mövcuddur*

onların da seçiciləri qarşısında hesabatlılığını təmin etmək mümkün olar. Digər vacib şərtlərdən biri odur ki, həmin bələdiyyələrin yerlərdə müstəqilliyi təmin olunmalıdır. Onların yerli icra hakimiyyətlərindən asılılığı aradan qaldırılmalıdır. Bütövlükdə Azərbaycan bələdiyyələri üçün xarakterik olan problemlər var, o problemlər həll olunmalıdır ki, yeni formalaşdırılan bələdiyyələr də əhaliyə keyfiyyətli ictimai xidmətlər göstərə bilsinlər. Bu ən ciddi məsələlərdən biri bələdiyyələrin maliyyə potensialı ilə bağlıdır. Yəni, bələdiyyələrə, o cümlədən yeni yaradılan özünüidarəetmə orqanlarına dayanıqlı maliyyə mənbələri verilməlidir ki, onlar çoxçeşidli xidmətlər göstərə və xidmətlərinin keyfiyyəti artıra bilsinlər. Başqa bir vacib məsələ səlahiyyətlərlə bağlıdır. Bu gün ölkənin bütün bələdiyyələri səlahiyyətsiz və məhdud maliyyəyə malik olduğu halda yeni bələdiyyələrin fərqli müstəvidə fəaliyyəti mümkün deyil. Bələdiyyə orqanlarının səlahiyyətləri konkretləşdirilməlidir. Yəni, yerli icra qurumları ilə üst-üstə düşən səlahiyyətlər var və həmin səlahiyyətlərin konkret dairələri müəyyənləşdirilməlidir. Bu şərtlər təmin olunarsa, yeni formalaşdırılacaq bələdiyyələrin real özünüidarə orqanları kimi fəaliyyətini təmin etmək mümkün olar". İşğaldan azad olunmuş ərazilərdə pay torpaqlarının bölgüsünə gəlincə, ekspert vurğulayıb ki, bu xüsusi yanaşma tələb edən məsələdir:

"Yəqin ki, ilk növbədə torpaq resurslarının həcmi müəyyən ediləcək. Daha sonra ora köçəcək insanların sayı dəqiqləşdirilməlidir. Bu saya uyğun olaraq da bölgü tənzimlənməlidir. Yəni, bu digər ərazilərdən fərqli olaraq xüsusi yanaşma tələb edir. Eyni zamanda, burada torpaq resurslarının həcmi və yaşayacaq əhalinin sayı müəyyən olunandan sonra artıq ədalətli bölgünü təmin etmək mümkün olacaq".

✍ *Sevinc*

# Özəl tibb müəssisələrində vahid qiymət siyasəti

**"Dövlət xəstəxanalarında vahid qiymət siyasətinin tətbiq olunması bu sahədəki boşluğu aradan qaldıracaq. Əvvəllər Azərbaycanda dövlət səhiyyə müəssisələrində tibbi xidmətlər pulsuz idi. Müəssisələrin publik hüquqi şəxsə çevrilməsindən sonra xəstəxanaların büdcədən maliyyələşməklə yanaşı, özlərinin əlavə pullu xidmət göstərmək imkanları da yarandı.**



Bu məsələdə sui-istifadə hallarına yol verilirdi. Nəticədə xəstə və həkim arasında qiymət məsələsində müəyyən konfiliklər ortaya çıxırdı. Vahid qiymət tarifi məhz bu kimi problemlərin aradan qaldırılmasına imkan yaradacaq".

■ **Bu fikirləri hafta.az-a açıqlamasında sosial məsələlər üzrə ekspert İlqar Hüseynli bildirib.** Gələcəkdə vahid qiymət siyasətinin özəl tibb müəsisələrinə də tətbiq olunması ehtimalına gəlincə, ekspert bunu mümkünsüz sayır. Onun sözlərinə görə, bu bazar iqtisadiyyatı prinsiplərinə zidd addım ola bilər: "Özəl sektora belə bir müdaxilə qeyri-mümkündür. Bu təxminən Tarif Şurasının dərmanların qiymətinə müdaxilə kimi bir sistemin formalaşmasına gətirib çıxara bilər. Zaman göstərir ki, strateji əhəmiyyətli məhsulların qiymətlərini istisna etsək, özəl sahibkarlıq subyektlərində hər hansı xidmətlərin dövlət tərəfindən tənzimlənməsi effektiv deyil. Qiymətlərə bir neçə faktor ciddi şəkildə təsir göstərir. Bura icarə, ən son tibbi avadanlıqlar, peşəkar xidmət və s. Ona görə də bu sahədə vahid tarifin tətbiq oluna bilmə ehtimalı demək olar ki, yoxdur".

Qeyd edək ki, bu gün "Milli Məclisin plenar iclasında "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna təklif edilən dəyişiklik layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Layihə barədə parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verərək deyib ki, dəyişikliklər qüvvəyə minəndən sonra tibb müəssisələrində fərqli qiymətlərin olması problemi aradan qaldırılacaq. Dəyişikliyə əsasən, xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edəcək. Dəyişiklik icbari tibbi sığorta ilə əhatə olunmayan və dövlət tibb müəssisələri üzrə əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin təsdiq edilməsinin hüquqi əsasının yaradılması məqsədilə hazırlanıb.

Dəyişiklik "Tibbi sığorta haqqında" qanuna uyğun olarsa, xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin, habelə həmin qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) - TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA), digər tibb müəssisələrinə münasibətdə isə tabe olduqları dövlət orqanları (qurumları) tərəfindən təsdiq edilməsi ilə bağlı münasibətləri tənzimləyəcək. Qanun layihəsi müzakirələrdən sonra üçüncü - sonuncu oxunuşda qəbul edilib.

✍ *Sevinc*

# Mərakeş Azərbaycanın haqlı mövqeyinə dəstək verdi

## Müsahib

***Azərbaycanın ərəb ölkələri ilə tarixən çox yaxşı əlaqələri olub və bu gün də belədir. Bunlardan biri də Mərakeş Krallığıdır. Coğrafi baxımdan ölkələrimizi çox uzun məsafə ayırmasına baxmayaraq, Mərakeşlə əlaqələrimiz sabit şəkildə inkişaf edir. 44 günlük Vətən müharibəsi dövründə, məsələn, Suriya və Livandan xoş olmayan davranış hiss etdiyimiz halda, Mərakeş Azərbaycanın haqlı mövqeyinə dəstək verdi. Nə yazıq ki, çoxlarının sabit və sakit gördüyü bu dost ölkənin özü də bir çox qarmaqarışıq problemlərə sürüklənmiş vəziyyətdədir. Ən başlıcası, Krallıq az qala yarım əsrdir Səhra problemi ilə üz-üzədir. Üstəlik, ölkənin şimalında - Aralıq dənizi sahillərində yerləşən strateji mövqeli Seuta və Melilla şəhərləri də müstəmləkə olaraq İspaniyanın nəzarətindədir. Mərakeş hökuməti və xalqı uzun illərdir bu torpaqları geri qaytarmağa səy göstərsə də, İspaniya güzəştə getməyə həvəsli görünmür.***



**İssam Laaroussi,**
beynəlxalq siyasət
üzrə mütəxəssis, professor

Mərakeşdən olan beynəlxalq siyasət üzrə mütəxəssis, professor İssam Laaroussi Hafta.az-a müsahibəsində Mərakeşin Azərbaycanla əlaqələrinə, Ermənistanla Azərbaycan arasında yaşanan son hadisələrə, eləcə də öz ölkəsini məşğul edən Səhra, Seuta, Melilla problemlərinə toxundu. Müsahibəyə birlikdə nəzər salaq:

- Azərbaycan coğrafi cəhətdən Mərakeşdən çox uzaqdır, eyni qitədə deyillər və aralarında birbaşa sərhəd yoxdur. Bununla belə, ölkələrimizi birləşdirən İslam dini və Şərq mədəniyyəti kimi bir çox ortaq elementlər var. Mərakeş xalqı Azərbaycanı, xüsusilə Ermənistanla yaşadığı son müharibə zamanı mediada yayımlanan çoxsaylı yazılardan daha yaxşı tanıdı. Təəssüflə bildirim ki, mərakeşlilər Azərbaycan haqqında hələ də dərin məlumatlara malik deyillər. Buna baxmayaraq, siyasi prizmadan yanaşdıqda Mərakeşin öz siyasi prioritetləri var. Mərakeş hökuməti hər zaman Azərbaycanın yanındadır və Qarabağda gedən hərbi əməliyyatlar zamanı da ölkənizlə həmrəylik nümayiş etdirdi.

***- Azərbaycan bir il əvvəl öz torpaqlarını Ermənistan ordusunun işğalından təmizlədi. Bu gün isə həmin ərazilərdə tikinti-quruculuq işləri gedir. Bu məsələylə bağlı ölkənizin hökuməti nə düşünür, Azərbaycana dəstək verməlidirmi sizcə? Mərakeş dövlət və ya özəl sektor səviyyəsində işğaldan qurtarılmış ərazilərin bərpasında iştirak etməlidirmi?***

- Mərakeş o qədər də böyük iqtisadi güc deyil, ağır məsuliyyətləri olan orta səviyyəli ölkədir. Xüsusilə son iki onillikdə Mərakeşin xarici siyasəti ərəb və Afrika ölkələrinin siyasi dairələrini narahat edirdi. Bundan əlavə, ölkəmizin Avropa İttifaqı ilə tərəfdaşlığa dair öhdəlikləri də mövcuddur. Məhz bu səbəblərdən Mərakeş Azərbaycanda azad edilmiş ərazilərinin tikinti-bərpa işlərində iştirak edə bilmir.

***- Müharibənin başa çatması haqda imzalanan sazişə əsasən Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında humanitar nəqliyyat dəhlizi açılmalıdır. Dediyim kimi, Ermənistan öz ərazisindən dəhlizin yaradılmasına icazə verdiyi halda, qonşu İran bunun əleyhinə çıxır. Beynəlxalq siyasət mütəxəssisi olaraq söyləyin, iki ölkə arasında razılaşma olduğu halda üçüncü dövlətin bu prosesi dayandırmaq istəməsi mümkündürmü? Həm də zorakılıq dili ilə...***

- Təsbit olunmuş beynəlxalq hüquqa görə, sərhədləri və sizin qeyd etdiyiniz hgumanitar dəhlizləri tənzimləyən ikitərəfli müqavilələr, beynəlxalq qaydalara və münasibətlərə uyğun gəlməyən hallar istisna olmaqla, tam qanunidir. Bu faktı əsas götürərək, İran razılaşmaya hörmət etməlidir və onun bu işə müdaxilə etməyə haqqı yoxdur. Sərhəd probleminin tərkib hissəsi olmayan üçüncü tərəf Azərbaycanla Ermənistan arasında dəhlizlərin yaradılması prosesinə qatıla və ya qadağa qoya bilməz. Yəni hər iki ölkə İranın maraqlarına toxunmamaq şərtilə humanitar məqsədlər üçün dəhlizlər yarada bilər.

***- Sizin də ölkəniz bəzi tarixi, həm də strateji ərazilərini itirib. Mərakeşin Aralıq dənizi sahillərində yerləşən bəzi torpaqları - Seuta və Melilla şəhərləri bu gün İspaniyanın nəzarətindədir, hansı ki, bu yerlər müstəmləkəçilik dövründə ispanlar tərəfindən ələ keçirilib. Bəs müasir dünyada belə mübahisəli ərazilərin əsl sahiblərinə qaytarılması mümkün deyilmi, bunu necə etmək olar? Məsələn, Azərbaycan 30 ildən sonra hərb yolunu seçərək torpaqlarını geri qaytardı, Argentina Malvin adalarını geri almaq üçün döyüşdü, amma uduzdu, vaxtilə iki yerə bölünmüş Yəmən, Almaniya birləşdi, Honkonq Çinə qayıtdı və sair. Seuta və Melilla nə vaxt qayıdacaq Mərakeşə?***

- Mərakeşin İspaniya tərəfindən qəsb olunmuş Seuta və Melilla şəhərləri məsələsi yalnız işğal problemi deyil, bu, beynəlxalq və regional çevrədə çox böyük narahatlıqlar yaradır. Həm Mərakeş, həm də İspaniya öz aralarında mövcud olan tarixi əlaqələrini qırmaq istəmirlər, çünki onları çox sayda ortaq maraqlar birləşdirir. Bu səbəbdən də, hərbi mübarizə üsulu problemi həll etmək üçün mükəmməl seçim deyil.

> *“Mərakeş xalqı Azərbaycanı son müharibə zamanı daha yaxşı tanıdı*

Hələ Kral II Həsənin hakimiyyəti dövründə işğal edilmiş Mərakeş şəhərlərinin gələcəyi haqda əsaslı araşdırmalar aparmaq üçün xüsusi qrupların yaradılması təklif edildi. Hətta deyərdim ki, bu dövrdə İspaniyanın Mərakeşlə əlaqələrini düzəltməsi üçün şanslar verildi. Amma müsbət nəticəsi olmadı. Hazırda Mərakeşdə immiqrasiya siyasəti də dəyişdirilib - ölkə vətəndaşlarına İspaniyaya və ya adıçəkilən şəhərlərə səfər etmək yasaqlanıb. Bu isə turizm ölkəsi olan İspaniyanın iqtisadiyyatına olduqca böyük zərbədir. Hesab edirəm ki, Seuta və Melilla şəhərlərinin Mərakeş ərazisi kimi tanınması barədə razılaşmanın imzalanması bütün xoşagəlməzliklərə son qoya bilər.

***- Mərakeşin Səhra problemi də var. Sovetdən qalma kitablarda Səhra müstəqillik uğrunda mübarizə aparan ərazi kimi tanıdılır. Amma reallıq budur ki, həmin ərazinin önəmli hissəsi Mərakeşə birləşdirilib. Lütfən bu mövzuda bizə elmi əsaslandırılan məlumat verin: Səhra müstəqil dövlət olmalıdır, yoxsa Mərakeşə birləşməlidir?***

- Mərakeş Səhrası “soyuq müharibə” dövründə alovlandırılan məsələdir. Həmin ərazi Mərakeş tərəfindən idarə olunur. Tarixi prizmadan baxdıqda, Mərakeş və Səhra əhalisi hər zaman tarixi və faktiki əlaqələrə malik olub. Lakin 1976-cı ildən bəri Əlcəzairin dəstəklədiyi “Polisario” (Xalq Azadlıq Cəbhəsi - V.T.), bu ərazilərdə Səhra xalqının müstəqil dövlətinin qurulduğunu bildirərək Mərakeşə qarşı müharibəyə başladı. Əslində, 1989-cu ildə “Polisario” ilə Mərakeş arasında toqquşmaların dayandırılmasına dair atəşkəs elan olundu və bundan sonra Birləşmiş Millətlər Təşkilatı düzgün və konstruktiv həll yolu axtarmaq üçün tərəfləri sülh danışıqlarına dəvət etdi. Hazırda məsələ olduqca mürəkkəbdir. Bu isə beynəlxalq oyunun qaydalarını dəyişdirən və regionda hər cür dəyişiklikdən qaçan ittifaqlarla bağlıdır.

***- Əlcəzairdən söz düşmüşkən, bu məsələdə mövqeyi məlumdur - Səhranı azad dövlət görmək istəyir və bu səbəbdən də “Polisario”nu dəstəkləyir. Hətta buna görə iki ərəb mənşəli qardaş dövlət olan Mərakeşlə Əlcəzair düşmənə çevriliblər. Niyə iki qardaş dövlət arasında ortaq dil tapılmır, bu düşmənçilik nə qədər davam dəcək?***

- Əlcəzair Qərbi Səhra dövlətinin öz müqəddəratını təyinetmə haqqı olduğunu deyir və onları dəstəkləyir. Əslində Əlcəzairin siyasi dairələri Səhra qaçqınlarını öz ərazilərində qurduğu düşərgələrdə yerləşdirir və himayə edir. Bu qeyri-real retorik münasibət birmənalı şəkildə Mərakeşin əleyhinədir. Əlcəzair tərəfi Mərakeşi özünə sözsüz düşmən hesab edir. Təəssüf ki, Əlcəzair heç bir səbəb olmadan, mütəmadi şəkildə Mərakeşin əleyhinə siyasət yürüdür, nəhayət, iqtisadi və hərbi təzyiq üsullarından yararlanaraq ölkəmizlə diplomatik əlaqələri kəsmək qərarına gəlib. Amma qeyd edim ki, hazırkı beynəlxalq dəyişikliklər Mərakeşin xeyrinədir. ABŞ-ın Səhra ərazisini Mərakeşin suverin torpaqları olaraq tanıması, eləcə də Afrika və Amerika ölkələrinin çoxunun mifik Səhra xalq Demokratik Respublikasını - RASD-ı tanımamaq qərarı Əlcəzairi bu məsələdə böyük uğursuzluqla üz-üzə qoyub.

***- Olmazmı ki, Ərəb ölkələri, yaxud İslam Əməkdaşlıq Təşkilatı, ya da elə Şimali Afrika ölkələri çərçivəsində, “Polisario”nun da iştirakı ilə siyasi konfrans keçirib Səhra məsələsi barədə ümumi qərar qəbul edəsiniz və bu məsələ buradaca bitə? Əslində şəxsən mən də arzu edərdim ki, Ərəb - İslam dünyası xırda subyektlərə bölünüb supergüclərin əlində oyuncağa çevrilməkdənsə, birləşib daha güclü iqtisadiyyat qursunlar...***

- Demək olar ki, əksər regional təşkilatlar Mərakeş Səhrası ilə bağlı müzakirələrdə iştirak etmək istəmirlər. Yalnız millətləri birləşdirən təşkilat, məsələn, BMT Səhra məsələsinə müdaxilə etmək və onu yoluna qoymaq qabiliyyətinə malikdir. Ərəb Liqası və İslam Əməkdaşlıq Təşkilatına gəldikdə, fikir və mövqe müxtəlifliyi üzündən bu təşkilatlar Səhra ixtilafına müdaxilə etməyi dayandırıb.

***- Heç kimə sirr deyil ki, dünyada istənilən məsələnin təşviqində əsas rolu media oynayır. Maraqlıdır, niyə Mərakeş hökuməti Səhra, yaxud da Seuta və Melilla məsələlərini daha real və geniş işıqlandırmaq üçün xarici jurnalistləri ölkəyə dəvət etmir, yəni presturlar təşkil etmir? Şəxsən mən əksəriyyətdən fərqli olaraq dəniz sahillərində dincəlməkdənsə, “Polisario”nun iddia etdiyi qızmar və qumlu bölgələrdə, eləcə də Seuta və Melillaya yaxın çevrələrdə olmaq, reportajlar hazırlamaq, reallığı Azərbaycan xalqına çatdırmaq istərdim...***

- Tamamilə razıyam, beynəlxalq media bu məsələlərdə çox böyük rol oynaya bilər. Məsələn, Səhra, eləcə də işğal altındakı Seuta və Melilla kimi şəhərlər haqqında keçirilən konfransları işıqlandırmaq və müstəqil olaraq yerindəcə araşdırma aparmaq üçün xarici jurnalistləri dəvət etmək əla ideyadır. Hesab edirəm ki, Mərakeş hökumətinin nöqsanlarından biri də məhz bu məsələdə beynəlxalq medianın imkanlarından yararlanmamasıdır.

***✍ Vüsal Tağıbəyli***

## Aktual

***Noyabrın ilk ongünlüyündə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada bir araya gələcəkləri barədə məlumatlar var. İndidən tərəflərin bir sıra sənədləri, hətta Zəngəzur dəhlizinin yaradılmasına dair razılaşmanı da imzalayacaqları deyilir. Bu arada, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş ərazilərə - Füzuli və Zəngilana səfəri zamanı da dəhlizin açılması məsələsi Türkiyə və Azərbaycan prezidentlərinin gündəmdə idi. Liderlər yeni yolun timsalında Zəngəzur dəhlizinin əsasını qoyduqlarını də elan etdilər.***

# İran Zəngəzur dəhlizindən ehtiyat edir

Bütün bunlara rusiyalı politoloqlar nə deyir, bölgəmizdə yaranan siyasi-iqtisadi güzərgah Moskvadan necə görünür? Cənubi Qafqaz üzrə rusiyalı siyasi ekspert Konstantin Tasits Hafta.az-a müsahibəsinə Azərbaycan və Ermənistan liderlərinin gözlənilən Moskva görüşünə münasibət bildirməklə başladı:



**Konstantin Tasits,**
Cənubi Qafqaz üzrə rusiyalı
siyasi ekspert

- Moskva görüşünin vaxtı ilə bağlı fikirlər səslənsə də, tərəflər hələlik Azərbaycan, Ermənistan və Rusiya liderlərinin növbəti görüşünün dəqiq nə vaxt keçiriləcəyini rəsmən təsdiqləməyiblər. Bununla belə, mətbuatda Ermənistan - Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyası, eləcə də respublikalar arasında nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı sənədlərin müzakirə olunduğu bildirilir. Gözləyək görək nə olacaq.

***- Hələ də erməni müxaliflər Rusiyanın müharibədə Ermənistana dəstək verməməsindən şikayətlənir. Müharibə Ermənistan ərazisində deyil, Azərbaycanda gedib... Elə Moskva da hər dəfə bunu dedi. Qəribədir, bu gün də Ermənistan müxalifəti Paşinyanı və Moskvanı yenə ittiham edir. Nədə, sülh sazişi imzalamaqla guya Ermənistanı güzəştə məcbur edəcəklər. Sizcə, bu güzəştlər nədir? Erməni müxalifəti nədən ehtiyatlanır, Paşinyan doğrudanmı xalqına xəyanət edir?***

- Ermənistan müxalifətinin baş nazir Nikol Paşinyana qarşı ittihamlarına daxili siyasi mübarizə kontekstində baxmaq lazımdır. İstənilən ölkədə müxalifətçilər real və ya uydurma bəhanə ilə hakimiyyəti tənqid edirlər. Ermənistanda müxalifət ehtiyat edir ki, danışıqlar prosesi çərçivəsində Paşinyan Azərbaycana Ermənistanın və ya Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə xələl gətirəcək güzəştlərə gedə bilər.

> *“Kommunikasiyaların blokdan çıxarılması Cənubi Qafqazın bütün ölkələrinin xeyrinə olacaq*

***- Zəngəzur dəhlizinin yaradılması planı həyata keçirilməkdədir. Şəxsən hesab edirəm ki, bu dəhliz Azərbaycan və Türkiyədən daha çox Ermənistanın iqtisadi çiçəklənməsinə kömək edəcək. Rusiya da ilk başdan bu dəhlizin yaradılmasına razıdır və hətta öz töhfələrini də verməkdədir. Siyasi mütəxəssis olaraq bu layihədən nə gözləyirsiniz, bölgəmiz bu layihədən nə qazana bilər?***

- Kommunikasiyaların blokdan çıxarılması Cənubi Qafqazın bütün ölkələrinin xeyrinə olacaq. Ermənistanla İran bir-biri ilə, eləcə də Rusiya ilə birbaşa dəmir yolu əlaqəsi əldə edəcəklər. Azərbaycan Naxçıvana və Türkiyəyə ən qısa marşrutu çəkə biləcək. Bu, iqtisadi inkişaf, qarşılıqlı ticarətin artması üçün mühüm stimul olacaq və dinc həyatın bərqərar olmasına töhfə verəcək.

***- Qəribədir, Azərbaycan, Rusiya, Türkiyə, hətta Ermənistan rəhbərliyinin dəstəklədiyi Zəngəzur dəhlizi layihəsinin əleyhinə yalnız İran çıxır. Sizcə, çox heyrətedici deyilmi, İranı narahat edən nədir?***

- Düşünürəm ki, İran da regionda bütün nəqliyyat əlaqələrinin açılmasını dəstəkləyir. Rəsmi Tehran Zəngəzur dəhlizinin də daxil olacağı Qərb - Şərq istiqamətində tranzit dəhlizlərinin İranı Ermənistan ərazisindən keçməklə Qara dənizdəki Gürcüstan limanları, eləcə də Rusiya ilə birləşdirən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə maneə yarada biləcəyindən ehtiyyat edir.

***- Zəngəzur dəhlizindən söz düşmüşkən, altıtərəfli formatın yaradılması (Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Türkiyə və İran) təklif olunub və bu format bir növ böyük bir iqtisadi bazarın və ya ticarət ittifaqının yaradılmasını nəzərdə tutur. Sizcə, Moskvadan baxanda bu formatın gələcəyi necə görünür?***

- Türkiyənin təklif etdiyi 3+3 formatının gələcəyini müzakirə etmək çətindir. Baxın, Gürcüstan ona qarşıdır, Ermənistanda isə müəyyən şübhələr var. Bundan əlavə, 3+3 formatı çərçivəsində hansı məsələlərin müzakirə olunacağı ilə bağlı konkret məlumatımız yoxdur. Hər halda, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin sözlərinə görə, Moskva bu təklifi dəstəkləyir və bu formatı məsləhətçi mexanizm və ya regional problemlərin müzakirəsi üçün dialoq platforması kimi qiymətləndirir.

***- Bu günlərdə Türkiyə Prezidentinin də iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə - Füzuli şəhərində beynəlxalq hava limanı, böyük avtoyollar və başqa obyektlər istifadəyə verildi. Zəngəzur dəhlizinin əsasının qoyulduğu deyilir. Bütün bunlar ona işarə etmirmi ki, artıq Ermənistanla Azərbaycan arasında düşmənçilik geridə qalıb, Türkiyə və Rusiyanın da iştirakı ilə bölgədə yeni siyasi-iqtisadi şərait yaranır?***

- Təəssüf ki, Ermənistanla Azərbaycan arasında ziddiyyətlər və həll olunmamış məsələlər hələ də qalır. Hər iki respublikanın cəmiyyətində silahlı münaqişə zamanı verilən itkilərə görə düşmənçilik və qarşılıqlı nifrət çox güclüdür. Buna baxmayaraq, Rusiya sülhməramlılarının mövcudluğu yeni mümkün genişmiqyaslı qarşıdurmaların qarşısını alan sabitləşdirici amildir. Bu barışıq, dinc həyatın bərqərar olması və mövcud ziddiyyətlərin həlli üçün güzəşt variantlarının axtarışı üçün imkanlar pəncərəsi açır.

***- İndi belə söhbətlər dolaşır ki, problem tamam aradan qalxdıqdan, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra, bu məsələyə verdiyi töhfələrə görə cənab Putinin Nobel sülh mükafatına namizədliyi irəli sürüləcək. Burada həqiqət axtarmaq olarmı, Putin Nobel sülh mükafatı ala bilərmi?***

- Bu sual daha çox Nobel Komitəsinə ünvanlanmalıdır. Onsuz da son illər mükafatçılar üçün seçim meyarları əksər hallarda qeyri-şəffafdır və ifrat dərəcədə siyasiləşdirilir.

***✍ Vüsal***

# "Nar" yerli İKT peşəkarlarının yetişməsinə dəstək olur

**“Nar” mobil rabitə bazarında yerli kadrların yetişdirilməsi və gənclərin təhsili başa vurduqdan sonra qısa müddət ərzində peşəkarlara çevrilməsi məqsədilə texniki ixtisaslar üzrə təhsil alan tələbələr üçün “Mobil rabitənin əsasları” təlimini təşkil edir. Təlim ödənişsiz əsasda və ali məktəb rəhbərliyinin təşkilati dəstəyi ilə keçirilir.**

Əsas mövzusu mobil şəbəkənin iş prinsipi və rabitə texnologiyaları olan ”Mobil rabitənin əsasları” təlimi ali məktəblərin tədris proqramına faydalı əlavə kimi tələbələri mobil rabitənin təcrübi tərəfi barədə bilgiləndirir. Belə ki, bu təlim ”Nar”ın peşəkar texniki heyəti tərəfindən hazırlanır və həyata keçirilir. Bu səbəbdən, təlimdə iştirak edən tələbələr bilikləri birbaşa olaraq işin peşəkarlarından öyrənir və onlara maraqlı olan sualları ”Nar”ın nümayəndələrinə ünvanlaya bilirlər.

Təlimin sonunda mobil rabitə sahəsində öyrəndikləri yeni biliklərin göstəricisi olaraq tələbələr ”Nar” tərəfindən sertifikatlarla təltif edilir. Bu il ilk təlim Azərbaycan Texniki Universitetinin tələbələri üçün keçiriləcək.

Qeyd edək ki, 2021-ci ilin əvvəlində KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti və ”Nar” rəhbərliyi arasında görüş keçirilmiş və əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilmişdi. Keçirilən bu təlim də mobil operatorun korporativ sosial məsuliyyət strategiyasının tərkib hissəsi olmaqla yanaşı, Azərbaycan Texniki Universitetilə nəzərdə tutulan əməkdaşlıq istiqamətlərindən biridir.



**■ “Ölkəxarici və ölkədaxili müalicə xərclərinin gəlir vergisindən azad edilməsində həddin müəyyənləşməsi bu sahədə gələcəkdə nə qədər sui-istifadə hallarının olub-olmayacağını bilmədiyimiz üçündür”.**

Bunu Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli deyib. Xidmət rəisi bildirib ki, bu risk olduğu üçün limit müəyyənləşib: “Gələcəkdə bu rəqəmi artıra və azalda bilərik”. Qeyd edək ki, Vergi Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən, ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10 000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 40 000 manatadək olan hissəsi gəlir vergisindən azad olunacaq.



**■ Azərbaycan növbəti onilliklərdə Xəzər regionundakı yeni neft layihələrinin işə salınması ilə stabil neft hasilatı səviyyəsini saxlamaq niyyətindədir. Bunu Energetika naziri Pərviz Şahbazov “Bloomberg” agentliyinə müsahibəsində deyib.**

Hasilatın artımının sürətləndirilməsi çağırışlarını şərh edən nazir bildirib ki, bu cür qərar iqtisadi səbəblərə və bazarın hərtərəfli araşdırılmasına əsaslanmalıdır. P.Şahbazov qeyd edib ki, bir müddət əvvəl Avropada yüksək qaz qiymətlərinin neft məhsullarına tələbi artırdığı vaxtda hasilat artımı hər rübdə 300-400 min barel/sutkanı keçmir: ”Biz tələbin kəskin artımını müşahidə etmirik, çünki elektrik enerjisi istehsalçıları hər zaman təbii qazın əvəzlənməsi üçün elektrik enerjisini seçmir. Onlar həm də nüvə enerjisi və kömürdən istifadə edir.

# Kitab naşirləri yeni qanundan məmnundur

## Sorğu



**_Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən kitab və kağız məhsullarının idxalının və satışının ƏDV-dən azad olunmasına dair Milli Məclisə daxil olmuş Vergilər Məcəlləsinə dəyişikliklərlə bağlı bu gün parlamentdə ictimai müzakirə təşkil olunub. Məlumata görə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə keçirilən müzakirələrdə Milli Məclisin deputatları, Azərbaycan nəşriyyat evlərinin, kitab satışı şəbəkələrinin, media qurumlarının nümayəndələri iştirak edib. Qanun layihəsinə görə, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən KİV məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı, mətbu KİV məhsullarının və kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla) ƏDV-dən azad olunur._**

Bəs görəsən, yeni qanun kitabsevərlərə nə vəd edir? ƏDV-dən azad edilmə kitabların qiymətinə nə kimi təsir göstərəcək? Hafta.az-ın əməkdaşı bu və digər suallara aydınlıq gətirmək üçün bir sıra kitab nəşriyyatı şirkətləri arasında sorğu apardı.

■ **İlk müsahibimiz "Hədəf Nəşrləri"nin baş redaktoru Cavid Qədir oldu. O, kitab və kağız məhsullarının idxalının və satışının ƏDV-dən azad olunmasına dair Vergilər Məcəlləsinə dəyişikliklərlə bağlı parlamentdə ictimai müzakirə təşkil olunmasından, dəyişikliklər qəbul edilsə, kitab bazarında hansı fərqlərin yarana biləcəyindən danışdı:**

"Sözügedən dəyişikliklər qəbul edildiyi təqdirdə bütövlükdə kitab industriyası üçün açılmış nəfəslik rolu oynayacaq. Çünki bütün məhsullar 18 faizlik vergi yükündən azad olacaq. Bu da xüsusilə pandemiya dövründə ciddi tənəzzül yaşayan kitab bazarına xeyli dəstək verəcək. Kitabçılığın inkişafı, eləcə də cəmiyyətin mütaliə səviyyəsinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən layihələrə yol açacaq. Yeri gəlmişkən, ölkənin əksər nəşriyyatını özündə birləşdirən Azərbaycan Nəşriyyatları İctimai Birliyinin təşkilatçılığı ilə 30-31 oktyabr tarixlərində keçirilən "I Sumqayıt Kitab Sərgisi" ANİB-2021 anşlaqla yadda qaldı. İndi təsəvvür edin, 18 faizlik ƏDV ləğv olunsa, daha hansı layihələrə imza atmaq olar". Baş redaktor, qanun qüvvəyə mindikdən sonra kitabların qiymətində yaranacaq dəyişikliklərlə bağlı suallarımızı da cavabsız qoymadı:

"Ümumiyyətlə, bir çap məhsulunun maya dəyərini konkret demək üçün həmin məhsulun bütün kriteriyalarını dəqiqləşdirmək lazımdır. Çap növü, tirajı, istifadə olunacaq kağız, səhifə sayı, ölçüsü, eləcə də digər nüanslar. Bircə məsələni dəqiq deyə bilərəm ki, kitabların qiymətində kifayət qədər yüksək pozitiv fərq yaranacaq. Onu da vurğulamaq yerinə düşər ki, kağız idxal məhsulu olduğundan qiymətinə nəzarət edə biləcək mexanizm yoxdur. Yəni bu məsələdə xarici bazardan asılılıq hökm sürür".

■ **Növbəti həmsöhbətimiz isə, "Əli və Nino" kitab mağazaları şəbəkəsinin təsisçisi Nigar Köçərlidir. Nigar xanım, yeni qərarın müzakirələrindən yüksək məmnuniyyətini ifadə etdi və onu da vurğuladı ki, bütün hallarda yeni qərar kitabsevərlərin xeyirinədir:**

"Qanun hələ ki qüvvəyə minməyib, lakin proses artıq yekunlaşır. Bu çox vacib məsələdir.

> *Sözügedən dəyişikliklər qəbul edildiyi təqdirdə bütövlükdə kitab industriyası üçün açılmış nəfəslik rolu oynayacaq...*

> *Bundan əvvəl biz Türkiyədən, Avropadan yaxud da Rusiyadan kitab idxal edəndə əlavə 18% ödəyirdik...*

> *Bu qanun kitab qiymətini təxmini 20%-ə qədər azaldıb, oxucuların sayını da eyni dərəcədə artıracaq...*

Çox sevincliyik ki, Milli Məclisin deputatı Tahir Mirkişilinin təşəbbüsü ilə qanunla bağlı ictimai müzakirə gedir, yaxında da qüvvəyə minəcək. Uzun bir proses oldu. Çoxdan olmalı idi.

Təşəkkür edirik ki, artıq Azərbaycanda da Türkiyə və Avropa ölkələrində olduğu kimi kitab yükü azalacaq. Bundan əvvəl biz Türkiyədən, Avropadan yaxud da Rusiyadan kitab idxal edəndə əlavə 18% ödəyirdik. Bu hal davam etdikcə ağır yükə çevrilirdi. Bir kitabçı şəbəkəsi olaraq ƏDV ödəyirdik. Həmin o əlavə qiymət də kitabın üzərinə gəlirdi, müştəri də onu ödəməli olurdu. Təbii ki, bu da hər kəsə böyük fərq edir. Kiməsə gülməli gələ bilər ki, kitab ya 4 manata oldu, ya 5 manata... Ancaq fərq böyükdür".

Təsisçi, yeni qanunun qüvvəyə minməsi ilə, kitabçılığa böyük marağın yaranacağını istisna etmir: "Sözügedən qanunun qüvvəyə minməsi ilk növbədə o deməkdir ki, daha çox insan kitab nəşriyyatına maraq göstərib, cəlb olunmağa çalışacaq. Bu da daha yaxşı kitabların çap olunması, tirajların artması, kitab qiymətinin aşağı düşməsi, oxucuların artması və s. bu kimi müsbət cəhətlərə səbəb olacaq. İkinci əsas məsələ odur ki, kitab şəbəkələri, nəşriyyat, kitab dağıtım şirkətləri daha şəffaf xidmət göstərməyə çalışacaqlar.

■ **"Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu isə yeni qərarın kitabların qiymətində 20%-lik fərq yaradacağına inanır. Həmçinin o, bu sayədə oxucuların artacağına da ümid bəsləyir:**

"Prezidentin təşəbbüsü ilə parlamentə qanun layihəsi qəbul olunub. Bu gün Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərliyi ilə layihənin müzakirəsi aparılıb, naşirlərin fikirləri dinlənildi. Ümumilikdə bu çox mütərəqqi addımdır. Azərbaycan dövlətinin quruculuq fəaliyyətinə uyğun olub kitab mədəniyyətimizə böyük töhfədir. Ümid edirəm ki, bu qanun kitab qiymətini təxmini 20%-ə qədər azaldıb, oxucuların sayını da eyni dərəcədə artıracaq".

Ş.Xuduoğlunun sözlərinə görə, hazırda ölkədə oxucuların çoxalma tendensiyası ildən-ilə artmağa davam edir:

"Kitab sərgisində gördük ki, hardasa 30 mindən yuxarı adam sərgiyə qatılmışdı. Yeni qərar bütün hallarda kitabsevərlərə böyük dəstəkdir. Həm qiymətlər aşağı düşəcək, həm də oxucuların sayı daha da artacaq. Bu qanun çox arzunda olduğumuz layihədir, və bütün hallarda kitaba olan diqqətdir". Sonda isə qeyd edək ki, qüvvədə olan Vergi Məcəlləsinə əsasən, hazırda ümumtəhsil müəssisələri üçün dərslik komplektləri (iş dəftərləri istisna olmaqla) və uşaq ədəbiyyatının istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti ƏDV-dən azaddır.

✍ *Banu*

---

Şanlı Zəfərimizin Memarına ithaf

### Xalqımın, Ordumun İlhamı İlham!

Ən uca kürsüdən dedi sözünü,
Bircə hərəkətlə sildi yüzünü,
Bilmək istəyirsən əgər düzünü,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!

Əvvəlcə xainin qırdı belini,
Sonra namərdlərin kəsdi dilini,
Sevdi obasını, sevdi elini,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!

Yüz ölçdü, bir biçdi, ustdan usta,
Mizanı yerində; nə tez, nə asta,
Cəngilər çalındı bu dəfə "Rast"da,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!

Bir həmlədə pozdu kələyin, fəndin,
Uçudu, dağıtdı illərin bəndin,
Hər dəfə yanıltdı düşmənin zəndin,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!

Ustaca bəllidi zamanın feli,
Taixdə dastandı babamın qolu,
Dəmir yumruq oldu İlhamın əli,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!



**Zaur Ustac,**
"Yazarlar" jurnalının
baş redaktoru, şair-publisist

### Ustacam

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,



İgidlər yurdunun nər övladıyam!
Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!

Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!

Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi "heç"in də,
Aqillər yurdunun pir övladıyam!

### Onu Tanrı seçib

Şərəfli əcdadın şanlı övladı ,
Bütün ulusunun qolu, qanadı,
Hər yanda fəxrlə çəkilir adı,
Çağ açıb qapadan söydandır soyu!
Tanrı tərəfindən qutlanıb toyu!

İlhamdır istəyi, elin arzusu,
Amalı, bir şirin dilin arzusu,
Əməli, tər qönçə gülün arzusu,
Çağ açıb qapadan söydandır soyu!
Tanrı tərəfindən qutlanıb toyu!

Nizamı, gərdişi ustadan usta,
Təftişi, gedişi ustadan usta,
Planı, döyüşü ustadan usta,
Çağ açıb qapadan söydandır soyu!
Tanrı tərəfindən qutlanıb toyu!

Seçir, sonalayır, sorur düşməni,
Ağladır, sızladır, yorur düşməni,
"iti qovan kimi qovur düşməni"
Çağ açıb qapadan söydandır soyu!
Tanrı tərəfindən qutlanıb toyu!

Nitqi, bəlağəti, şəsti yerində,
Görkəmi yerində, büstü yerində,
Alınmaz qaladı, postu yerində,
Çağ açıb qapadan söydandır soyu!
Tanrı tərəfindən qutlanıb toyu!

### Dağlar

*(Dağlara xitabən üçüncü şeiri)*

Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!

Dövranın gərdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,
Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!

Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!

Xətai qırmadı könül bağını,
Nadir unutmadı hicran dağını,
İlhamın silahı əzdi yağını,
Dəmirdən yumruğun mübarək, dağlar!
Qurtuldu yağıdan zənburun, balın,
Bir başqa görünür yamacın, yalın,
Zirvəndən boylanır şanlı hilalın,
Müqəddəs sancağın mübarək, dağlar!

Haqqa nisbət tutub ulu Ələsgər,
Andırıb, tanıdıb, bilib pərisgar,
Hər səngər məbəddi, pirdi hər əsgər,
Şuşa tək ocağın mübarək, dağlar!

Ay Ustac, min şükür arzuna yetdin,
"Dədə"n gedən yolu, sən də qət etdin,
Dolandın dünyanı yurdunda bitdin,
Doqquzu zər tuğun mübarək, dağlar!

### Üç qardaş

*(Azərbaycan, Türkiyə, Pakistan qardaşlığına)*

Bir qardaş sağında, biri solunda,
Təpəri dizində, gücü qolunda,
Qardaşlıq məşəli yanır yolunda,
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

Xətai amalı bu gün oyaqdır,
Nadirin əməli bu gün dayaqdır,
İlhamın təməli bu gün mayakdır!
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

Zamanla yaşadıq xeyli qeylü-qal,
Görməsin bir daha bu birlik zaval,
Dağlara biryolluq qayıdır Hilal,
Yeni çağ başladır xan Azərbaycan!
Türkiyə, Pakistan, can Azərbaycan!

---

# Generalla görüş hər adama qismət olmur

## Təəssürat

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının gənc müəllimi, heykəltəraş Zamin Rzayev bu günə qədər bir çox şəhidin xatirəsinə ucaldılmış heykəllərin müəllifidir. O, son olaraq, "Vətən Müharibəsi Qəhrəmanı", Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyevin büstünü hazırlayıb.**

Gənc müəllim daha sonra əl işini generalla görüşərək ona təqdim edib. Hafta.az-ın əməkdaşı heykəltəraş Zamin Rzayev ilə həmsöhbət oldu. Müsahibəni təqdim edirik:

***- Zamin bəy, general-leytenant Hikmət Mirzəyevin büstünü hazırlamaq ideyası sizdə nə vaxt yarandı?***

- Generalın büstünü hazırlamaq ideyası paraddan sonra yarandı. Düşündüm ki, gərək sağ qalan qəhrəmanlarımızı da ölümsüzləşdirək.

***- Niyə məhz Hikmət Mirzəyev?***

- Təbii ki, imkanım olsa, hər qəhrəmanımızın büstünü hazırlayardım. Ancaq bir yerdən başlamaq lazımdır. Mən Hikmət Mirzəyevin pərəstişkarı olan 10 milyon azərbaycanlıdan biriyəm. Ona qarşı böyük rəğbətim olduğu üçün bu addımı atdım.

***- Bəs görüş haqqında nə deyə bilərsiniz?***

- Çox şad oldum. Generalla görüş hər adama qismət olmur. Bu qədər səmimi görüş, təbii ki, mənə böyük qürur hissi yaşatdı.

***- General bu təşəbbüsünüzü nə cür qarşıladı?***

- Hikmət Mirzəyev təşəbbüsümü yaxşı qarşıladı və məni vətənpərvər Azərbaycan övladı kimi gəlişi ilə qiymətləndirdi. Heykəli ona təqdim etmək bir vətəndaş olaraq borcum idi. Bilirəm ki, 10 milyon azərbaycanlının əlindən heykəl düzəltmək bacarığı gəlsə o adamın heykəlini ucaldar. Hər kəs öz bacarığı və qabiliyyəti ilə generala təşəkkürünü bildirmək üçün əlindən gələni edər.



***- Bu günə qədər başqa hansı qəhrəmanlarımızın heykəlini hazırlamısınız?***

- Vətən müharibəsi qəhrəmanlarından Albert Aqarunovun, aprel şəhidlərimiz Samir Kaçayevin, Cavid Səfərlinin, Nicat Şükürlünün və bir neçə şəhidimizin büstlərini hazırlamışam. İmkan olduqca digər qəhrəmanlarımızın da büstlərini hazırlamağa çalışacam.

***- Zamin bəy, hazırda hansı işlər üzərində çalışırsınız?***

- Özüm üçün balaca, saxlaya biləcəyim büstlər hazırlayıram. İndi iki şəhidin büstü üzərində işləyirəm.

***- Bilmək olar, hansı şəhidlərimizin büstü hazırlanır?***

- Onlar hələ hazır deyil deyə məlumat verə bilmirəm.

✍ *Banu*

# Təbii meyvə şirəsi - immunitetin dərmanı

## Menyu

***Rəngli, qazlı içkilərin populyar olduğu bu dövrdə meyvə şirələrindən istifadə etmək olduqca faydalıdır. Təbii meyvələrdən çəkilərək əldə edilən belə sular xəstəliklərə qarşı orqanizmdə immunitet yaranmasına kömək edir. Təzə sıxılmış meyvə şirələri həm qablaşdırılmış şirələrdən, həm də kompotlardan daha vitaminlidir. Buna görə də mütəxəssislər xüsusən qış aylarında bol meyvə şirəsi qəbul etməyi tövsiyə edirlər.***



“Menyu” rubrikasının bugünkü mövzusu meyvə şirələri ilə bağlıdır. Ən əsas isə marketlərdə 1 litrinin qiyməti 1 manata satılanlardan bəhs edəcəyik.

■ **Mövzu ilə bağlı saytımıza danışan sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirdi ki, marketlərdə hazır satılan şirələr təbii meyvə şirələri hesab olunmur. Çox uzun müddət öncədən düzəldilərək qablaşdırılır. Üstəlik, hansı meyvələrdən çəkildiyi də çox zaman məlum olmur:** “Adətən, belə şirələrin hazırlanmasında zədələnmiş, xarab olunmuş meyvələrdən istifadə edilir. Təəssüflər olsun ki, bəzən üzərində açıq şəkildə qeyd olunduğu kimi, tərkiblərinə ətirləndiricilər qatılır. Uzun müddət rəfdə qalması, ətrini və dadını itirməməsi, qarışmaması kimi xüsusiyyətlərin hər biri üçün ayrı-ayrılıqda qatqı maddələri əlavə olunur. Bu kimyəvi qatqılar da səhhətimiz üçün zərərlidir. Onlar orqanizm tərəfindən mənimsənilmir və bir-başa böyrəklər vasitəsilə atılır. Belə olan halda da böyrəklər həddindən artıq yüklənir”. Mütəxəssis belə şirələrin körpələrə verilməsini şiddətlə qınayır. Yaxşı olardı ki, balacalara meyvə şirəsi deyil, meyvənin özü verilsin:



Məhsəti Hüseynova, sağlam qidalanma üzrə mütəxəssis

> “ *Adətən, belə şirələrin hazırlanmasında zədələnmiş, xarab olunmuş meyvələrdən istifadə edilir*

“Bu şirələri körpələrə daha çox verirlər ki, bu da yolverilməz haldır. Ən faydalısı meyvənin özünü balacalara yedirmək olsa da, ev üsulu ilə təbii şirə əldə etmək də məsləhət görülür”.

M.Hüseynova bir məqamı xüsusilə vurğulayır. Bu da odur ki, qiymət hər zaman keyfiyyət xəbərçisi olmasa da, çox hallarda ucuz məhsulun tərkibi məlum olmur. Küçələrdə satılan nar şirələrinə gəldikdə, o hesab edir ki, meyvə düzgün və təmiz şəkildə sıxılıb, steril qablara tökülərsə faydalıdır:

“Yaxşı olar ki, nar şirəsi çəkildikdən 45 dəqiqə-1 saat ərzində istehlak edilsin. Tərkibinə limon duzu əlavə edilsə daha yaxşıdır və saxlandıqda problem yaşanmır. Uzun müddət qaldıqda, təbii olaraq faydalı elementlərini itirir. Alan zaman satıcının əlində əlcəyin olub-olmamasına mütləq şəkildə diqqət yetirmək lazımdır.

Pulu aldığı əl ilə nar şirəsi çəkilməməlidir. Əsas məqam isə odur ki, nar qabıqlı məhsul olduğundan, yuyulmadan şirəsi əldə edilir. Bu da onun harada, hansı şəkildə daşındığını nəzərə alaraq təmizliyini sual altında qoyur. Küçədə satılan şirələri alan şəxslər satıcının əl yumaq üçün şəraitinin olub-olmadığını da yoxlamalıdır. Bir çoxları bu satışı səyyar formada həyata keçirir. Ona görə də sadalanan bütün hallara diqqət edilməlidir. Bütün bunlar nızərə alınarsa, təbii yollarla əldə edilmiş nar şirəsi olduqca faydalıdır. Xüsusilə də immun sistemini gücləndirir, qanazlığını aradan qaldırmağa kömək olur”.

*Banu*



## “Nar” 4G istifadəçilərinin sayı artıb

**Abunəçilərini kəsintisiz və sürətli internet təcrübəsi ilə təmin etməyi hədəfləyən “Nar”ın 4G istifadəçilərinin sayı 2021-ci ilin 9 ayı ərzində ümumilikdə 23% artıb.**

Artıma hər bir abunəçinin ehtiyaclarına uyğun xüsusi təkliflərin təqdim olunması, Bakı və regionlarda yeni baza stansiyalarının quraşdırılması, eyni zamanda şəbəkə üzrə davamlı optimallaşdırma işləri səbəb olub. Qeyd edək ki, mobil operatorun 4G istifadəçilərinin 62%-i paytaxt Bakının, 38%-i isə regionların payına düşür. “Nar”ın 4G istifadəçiləri sərfəli şərtlərlə müxtəlif ölçülü internet paketlərindən yararlanır, eyni zamanda ölkədaxili dəqiqələr, bol internet və bonusları özündə birləşdirən “FULL” paketlərini seçirlər. Qeyd edək ki, “Nar” şəbəkəsi 8780-dən artıq baza stansiyası ilə ölkə əhalisinin 99,9%-ni, ölkə ərazini 90%-ni şəbəkə ilə əhatə edib.

## Bakı və Abşeronda mobil internetin sürəti 30% artacaq

**Müasir zamanda mobil internetə olan əsas tələb - bağlantının sürətli və kəsintisiz olmasıdır. “Azercell Telekom” elə bu ehtiyacı əsas tutaraq Azərbaycan üzrə LTE şəbəkəsinin əhatə dairəsini getdikcə daha da artırır. Hazırda Azercell-in LTE şəbəkəsinin coğrafi baxımdan əhatə dairəsi ötən ilə nisbətən təxminən 7% daha artıqdır.**




Ümumilikdə 2021-ci ilin 9 ayı müddətində şirkətin quraşdırdığı yeni stansiyalarının fəaliyyəti nəticəsində LTE şəbəkəsinin əhali üzrə əhatə dairəsi 85.65%-ə, coğrafi əhatə dairəsi isə 74.3%-dək artıb. Xatırladaq ki, şirkətin ümumilikdə səs və mobil internet xidmətlərinin əhatəsi baxımından son göstəriciləri: ölkə ərazisi üzrə 94,25%, ölkə əhalisi üzrə isə 98,73% təşkil edir. Bütün bunlarla yanaşı, Azercell yaxın zamanda Bakı və Abşeronda internet tutumunu və sürətini daha 30% artırmağı planlaşdırır. LTE şəbəkəsinin təkmilləşdirilməsi üzrə görülən işlər Azercell-in təqdim etdiyi xidmətlərin keyfiyyətinə, mobil internetin sürətinə də güclü təsir göstərib. Hazırda Bakı şəhərində ən yüksək sürətli LTE şəbəkəsi də məhz şirkətə aiddir. Bunu paytaxtda aparılan sürət testləri (Drive Test) dəfələrlə sübut edib.

Son 3 il ərzində Azercell-in şəbəkəsi üzərindən endirmə sürəti 2.5 dəfə artıb. Belə ki, 2018-ci ildə Bakı və Abşeron yarımadası üzrə orta sürət bu sürət 19 Mbit/s təşkil edirdisə, ötən il 41 Mbit/s, bu il isə 51 Mbit/s olub. Lakin Azercell yalnız paytaxtda deyil, bütün ölkə üzrə abunəçilərini sürətli və keyfiyyətli mobil internetlə təmin edir. Hazırda Azercell-in LTE şəbəkəsi ilə 240 Mbit/s qədər endirmə (download), 95 Mbit/s qədər isə yükləmə (upload) sürəti əldə etmək mümkündür. Son 1 il ərzində Azercell şəbəkəsi üzrə LTE texnologiyası ilə ötürülən data trafikin həcminin də 1.7 dəfə artdığını xüsusilə qeyd etmək lazımdır. Mühüm göstəricilərdən biri də şəbəkə üzrə ötürülən ümumi data trafikin təxminən 71%-nin məhz LTE texnologiyası üzərindən daşınmasıdır. Bu da o deməkdir ki, bu sürətlə Ultra HD 4K keyfiyyətli videonu onlayn şəkildə heç bir kəsinti olmadan rahatlıqla izləmək mümkündür.

Mobil operator mütəmadi olaraq ölkə üzrə radio baza stansiyalara LTE texnologiyasını əlavə etməklə onların işini təkmilləşdirir, həmçinin öz şəbəkəsini daha keyfiyyətli, daha çox tutuma malik yeni texnologiyaların tətbiqinə hazırlayır. Bu məqsədlə təkcə 2021-ci ildə mövcud 50 radio baza stansiyaya LTE texnologiyası əlavə olunub, 246 sayda stansiyada təkmilləşdirmə işləri aparılıb, 150 stansiyanın isə ümumi internet tutumu artırılıb. 2021-ci ilin yanvar ayından bu günə kimi LTE texnologiyası üzərindən çalışan 76 ədəd yeni radio baza stansiya quraşdırılıb. Hazırda şirkət ölkə ərazisindəki ümumi olaraq 2846 stansiyası ilə abunəçilərini müasir və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edir. Azercell işğaldan azad olunmuş ərazilərimizdə də mobil telekom infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. İndi işğaldan azad olunmuş torpaqlarımızda Azercell şirkətinə məxsus 65-dən artıq radio baza stansiyası fəaliyyətdədir.

Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər artıq Azercell şəbəkəsi ilə əhatə olunub. “Azercell Telekom”-un Bakı metropolitenində apardığı tədbirlər nəticəsində artıq metro sərnişinləri qatarın hərəkətdə olduğu zaman da internetsiz qalmırlar. İndiyədək Bakı metropoliteninin mövcud 24 stansiyası və 23 tunelində LTE-Daşıyıcı Birləşdirmə sistemi aktivləşdirilib. Yaxın zamanda Bakı metropoliteninin artıq bütün tunelləri Azercell LTE şəbəkəsi ilə əhatə ediləcək.

Xatırladaq ki, dünya miqyaslı telekommunikasiya şirkəti olan Ericsson-un apardığı bençmarkinq araşdırmaları göstərir ki, bir çox keyfiyyət göstəricilərinə görə Azercell dünya üzrə yüksək nəticə göstərərək “Best in class” kateqoriyasına daxil olub. “Azercell Telekom” MMC-nin əsas prioritet istiqamətlərindən biri abunəçilərini hər zaman keyfiyyətli mobil rabitə ilə təmin etməkdən ibarət olub.

Azercell LTE şəbəkəsini təkmilləşdirməklə abunəçilərinə daim onlayn olmaq, böyük həcmli videoları daha yüksək keyfiyyətdə izləmək, bu faylları daha tez yükləyib ötürmək, kəsintisiz səsli zənglər etmək imkanını yaradır.

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏRHUMU



“Ögey ana” filmində Solmaz obrazını canlandıran Almaz Məmmədova vəfat edib. Bu barədə onun yaxınları məlumat verib. Bildirilib ki, A.Məmmədova 80 yaşında dünyasını dəyişib. Qeyd edək ki, A.Məmmədova “Ögey ana”dan sonra heç bir filmdə çəkilməyib və həmişə mediadan uzaq olub.

### Həftənin TƏNQİDİ



ABŞ Prezidenti Co Bayden rusiyalı həmkarı Vladimir Putini tənqid edib. Bayden bu barədə Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin Qlobal İqlim Dəyişikliyi üzrə 26-cı Konfransında çıxışı zamanı danışıb. “Rusiyada Putinlə eyni vəziyyət yaşanır. Onun da tundrası yanır. İqlimlə bağlı ciddi problemlər var. Amma o, susur”, - deyə ABŞ lideri bildirib.

### Həftənin XƏSTƏSİ



İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian koronavirusa yoluxub. İranın XİN başçısının COVID-19 testi müsbət çıxıb. Abdullahian hazırda özünü yaxşı hiss edir və distant şəkildə işləməyə davam edir.

### Həftənin MERİ



Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) oktyabrın 30-da keçirilmiş təkrar seçkilərin bəzi dairələr üzrə ilkin nəticələrini açıqlayıb. Paytaxt Tbilisi üzrə yaradılmış 769 seçki məntəqəsinin 768-də və ya 99,87 faizində səslər sayılıb. Hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının namizədi Kaxa Kaladze 55,6 faiz səs toplayaraq yenidən Tbilisinin meri seçilib. Onun rəqibi - müxalif “Vahid Milli Hərəkat” partiyasının namizədi Nika Meliya isə 44,4 faiz səs toplayıb.

### Həftənin MƏŞQÇİSİ



AFFA bu ilin sonunda Azərbaycan millisinin baş məşqçisi postundan göndəriləcək Canni De Byazi üçün artıq əvəzləyici tapıb. Federasiya italiyalı mütəxəssisin yerinə türkiyəli Okan Buruku gətirmək istəyir. Bu barədə məlumatı “Milliyet” nəşri yayıb. Bildirilib ki, AFFA Okan Burukla 2+2 illik müqavilə imzalamaq istəyir. Artıq tərəflər arasında İstanbulda görüşmələr də baş tutub. Dünya çempionatının seçmə mərhələsi başa çatdıqdan sonra De Byazi göndəriləcək və Okan Buruk millinin baş məşqçisi olacaq.

### Həftənin SERİALI



Türkiyənin ATV telekanalında yayımlanan “Eşkiya Dünyaya Hükümdar olmaz” teleserialı bitib. Bunu serialın baş rol oyunçusu Oktay Kaynarca İnstaqram hesabında elan edib. Həftələrdir reklam edilsə də, keçən çərşənbə axşamı serial yayımlanmamışdı. Serialın prodüserləri ilə ATV rəhbərliyi arasında problemlər olduğu iddia edilmişdi.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



Mən bu topu tutacağam...

## İran Zəngəzur dəhlizindən ehtiyat edir

**Konstantin Tasits,**
Cənubi Qafqaz üzrə rusiyalı siyasi ekspert

Kommunikasiyaların blokdan çıxarılması Cənubi Qafqazın bütün ölkələrinin xeyrinə olacaq.

Səh. 6

## STATİSTİKA



■ Yer kürəsində əhalinin sayının milyard nəfər artması üçün 123 il vaxt tələb olunub - 1804-1927. Lakin 1987-1999-cu illərdə dünya əhalisinin sayının 5 milyarddan 6 milyarda çatması üçün 12 il vaxt bəs edib.

■ Amerikanın vergi xidməti il ərzində 2 milyarddan çox kağız sənəd üzərində iş aparır.

■ Orta statistik rəqəmlərə görə, il ərzində bir insan 1140 telefon zəngi edir.



Səh. 7

## Kitab naşirləri yeni qanundan məmnundur